www.musavat.com
# YENİ MÜSAVAT
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 sentyabr 2014-cü il Çərşənbə axşamı № 225 (5934) Qiyməti 40 qəpik

**Xəbər**

## Ölkədə ciddi bahalaşma olacağı anonsu verildi
yazısı səh.15-də

**Gündəm**

### Medvedyev Avropadan Bakıya uçuşları ləğv edəcəyi ilə hədələdi

Rusiya sanksiyalara daha sərt qadağalarla cavab verməyə hazırlaşır
yazısı səh.10-da

### Sabiq MTN əməkdaşından 3 ton heroinlə bağlı ilginc iddia
yazısı səh.12-də

### Elmar Hüseynovun atası xərçəngdən vəfat etdi
yazısı səh.2-də

*Politoloq:*
### "Türkiyə İŞİD-ə qarşı koalisiyaya qoşulmayacaq"
yazısı səh.10-da

### "İREX Azərbaycan"ın rəhbəri ölkəni tərk edib
yazısı səh.6-da

### Hökumət bəzi məhsulların bahalaşdığını rəsmən etiraf etdi
yazısı səh.11-də

### Müxalifət "zakrıt, vse uşli na facebook"...
yazısı səh.5-də

### Deputatlar "paralel dövlət" ittihamına cavab verdilər
yazısı səh.6-da

### Ölü sahiblərinə bahalı başdaşıları qoymaq da yasaq edilir
yazısı səh.11-də

### "AMAY Abdulla"nın həbs müddəti yenə uzadıldı
yazısı səh.3-də

### İcra hakimiyyətləri və səfirliklərdə audit yoxlamaları bitdi
yazısı səh.11-də

### Hicab məhbusu bir aydır "kars"da saxlanılır
yazısı səh.6-da

## Qaçqınların məskunlaşdığı bina niyə partlayıb?

# XIRDALANDA DƏHŞƏTLİ OLAYIN TƏFSİLATI: 3 ÖLÜ, YARALILAR VƏ QARŞIDURMA...

Qaz sızması nəticəsində baş verən bədbəxt hadisə nəticəsində bir neçə nəfər yanıb və ağır xəsarətlər alıb, FHN naziri hadisə yerinə gəldi; yaralıları aparan maşın tıxacda qaldı; xilasetmə işləri dağıntılar altında qalanların yaxınlarının etirazına səbəb oldu, gərginlik yaşandı...


Toğrul İsmayıl
yazısı səh.4-də

# ABŞ-dan Qarabağa dair böyük sülh sazişi təklifi

Elmar Məmmədyarov Kerrinin vasitəçiliyi ilə baş tutan görüşün əsl mahiyyətini açıqladı; gələn ay sənədin hazırlanması prosesinə start veriləcək
yazısı səh.9-da


*Tofiq Yaqublu:*
### "Nə vaxt xalqımız demokratiya uğrunda mübarizə aparıb ki, Qərb onu meydanda tək buraxıb?"
yazısı səh.3-də


*Gülər Əhmədova:*
### "İstəyirsən məşhur ol, istəyirsən qeyri-məşhur, türmə çətin yerdir"
yazısı səh.12-də


### Ziya Məmmədovun infarkt keçirməsi xəbəri yayıldı
yazısı səh.5-də



**Müsavat Partiyasının başqanı İsa Qəmbər Mübariz Hüseynlini 50 illik yubileyi münasibəti ilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Mübariz bəy!**

**Sizi 50 illik yubileyiniz münasibəti ilə təbrik edir, uzun ömür, cansağlığı, işlərinizdə uğurlar arzulayıram.**

**Siz, 1988-ci ildə başlayan Azərbaycan Xalq Hərəkatının ilk günlərindən onun sıralarına qoşulmuş, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizənin fəal nümayəndələrindən biri olmusunuz. Yarandığı ilk gündən Azərbaycan Xalq Cəbhəsinin üzvü kimi ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğu işinə böyük töhfələr vermisiniz. Apardığınız bu şərəfli işi 2004-cü ildən Müsavat Partiyasının sıralarında davam etdirmisiniz. Səbail rayon təşkilatının özək sədri kimi aktiv fəaliyyətdəsiniz. Prinsipial və fədakar mübarizənizə görə dəfələrlə təqib və təzyiqlərlə üzləşsəniz və həbs olunsanız da heç zaman öz əqidənizdən dönməmisiniz.**

**Siz mehriban, qayğıkeş bir ailə başçısı, atasınız. İnanıram ki, bundan sonra da hər zaman övladlarınız və Sizi tanıyan insanlar Sizinlə qürur hissi keçirəcəklər.**

**Hörmətli Mübariz bəy!**

**Bir daha Sizi 50 illik yubileyiniz münasibəti ilə təbrik edir, Sizə uzun ömür, cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik və apardığınız bu şərəfli mübarizə yolunda uğurlar arzulayıram."**

# Elmar Hüseynovun atası vəfat etdi

## Sabir Hüseynov mədə xərçəngindən əziyyət çəkirdi

**"Monitor" jurnalın baş redaktoru, mərhum jurnalist Elmar Hüseynovun atası Sabir Hüseynov vəfat edib. Bu barədə "Qanun nəşrlər Evi"nin direktoru Şahbaz Xuduoğlu öz facebook səhifəsində məlumat yayıb. "Yeni Müsavat" dəfn mərasimində iştirak edən Ş.Xuduoğlu ilə əlaqə saxlayaraq öyrəndi ki, S.Hüseynovun ölümünə xəstəliyi səbəb olub. Mədə xərçəngindən əziyyət çəkən və uzun müddət müalicə olunan jurnalistin atası son bir həftədə ağırlaşıb, metastaz verib.**



Sentyabrın 7-də S.Hüseynov üçün təcili tibbi yardım çağırsalar da, vəziyyəti düzəlməyib. Bu gün yenidən evə həkim çağırılıb. Amma həkimlər onun həyatını xilas edə bilməyib.

Sentyabrın 8-də günorta saatlarında dəfn olunan S.Hüseynovla vidalaşma mərasiminə 6-7 nəfər qatılıb. Onların arasında oğlu, qızı ilə yanaşı, Ş.Xuduoğlu, Elmarın sürücüsü olmuş Zakir Hüseynov da olub.

Xatırladaq ki, S.Hüseynov hələ sağlığında oğlu E.Hüseynovun məzarı yanında, Fəxri Xiyabanda özünə məzar yeri ayırmış, hətta qəbir daşı düzəltdirmişdi. Qəbir daşının üstündə onun ancaq doğum tarixi qeyd edilmişdi - 1936-cı il. Dünən məzar daşının üstündə onun ölüm tarixi də qeyd edilib.

❑ **Sevinc TELMANQIZI**

# Arif Hacılı partiyadakı vəzifələrindən istefa verdi

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı vəzifəsindən istefa verib. O, "media forum" saytına deyib ki, istefa haqda qərarını partiyanın qurultayı hazırlıq üzrə təşkilat komitəsinin 8 sentyabr iclasında elan edib:**

"Partiyanın Mərkəzi İcra Aparatının rəhbəri vəzifəsi ilə yanaşı Müsavat başqanının təşkilat məsələləri üzrə müavini postundan, Divan və Məclis üzvlüyündən də istefa verdim. Hesab edirəm ki, partiyada tutduğum vəzifələr Müsavat qurultayı nümayəndələrinin öz iradələrini sərbəst və azad formada ifadə etmələrinə heç bir maneçilik törədə bilməzdi.

Amma bununla bağlı müxtəlif fikirlər səslənirdi, kimlərsə iddia edirdilər ki, partiyada vəzifə tutmağım qurultay nümayəndələrinin iradələrini sərbəst formada ifadə etmələrinə mane ola bilər. Mən də hesab etdim ki, bu məsələdə də nümunə göstərməliyəm. Ona görə də qurultaya hazırlıq üzrə təşkilat komitəsinin iclasında vəzifələrimdən istefa verdiyimə dair bəyanat səsləndirdim".

**Sentyabrın 27-də Müsavat Partiyasının qurultayı keçiriləcək. Gündəlikdə duran əsas məsələ başqan seçkisidir. Arif Hacılı partiya başqanlığına namizədliyini irəli sürəcəyini bəyan edib.**

# "Putin güclü, Obama zəifdir..."

## "Forbes"dən sensasion yazı



**Dünyaca ünlü "Forbes" yazır ki, Ukrayna böhranının nəticəsindən asılı olmayaraq Vladimir Putinin nüfuzu daha da güclənəcək: "Mahiyyətdə Putin yeni Napoleondur. O, Krımı ələ keçirdi, Ukraynanın şərq tərəfində rusdilli insanların Kiyevə qarşı müqavimətini gücləndirdi".**

Müəllif yazır ki, Barak Obama haqqında isə bunu demək olmaz. "Google-də "Obama + wimp"ə axtarış versən (wimp-yazıq, zəif anlamında) milyondan çox nəticə göstərəcək.

Ancaq problem təkcə Obamanın şəxsi keyfiyyətləri ilə bağlı deyil. Son 60 ildə Amerika bütün təzyiq rıçaqlarından imtina edib, halbuki məhz həmin rıçaqlara görə dünya siyasətində üstün mövqedə idi. İndi isə vəziyyət o həddə çatıb ki, Cənubi Koreya kimi uzun zamanların müttəfiqi da Rusiyaya tətbiq olunan iqtisadi sanksiyalardan boyun qaçırmaq istəyir. Yaponiya da bu sanksiyalara soyuq yanaşır.

Hətta Avropada da vəziyyət birmənalı deyil. İrlandiya, İtaliya, İspaniya, Kipr, Yunanıstan və Bolqarıstan Rusiyaya simpatiya bəsləyirlər. Bu sanksiyaları əsasən Polşa və üç Baltikyanı ölkə ürəkdən dəstəkləyir. Bir çox Avropa ölkələri isə bu məsələdə orta mövqedə qalıblar".

❑ **Elbəyi HƏSƏNLİ, Sürix**

# Partlayışdan zərər çəkən ailələrinin mənzil problemi həll olunub

**"Xırdalan şəhəri, 26-cı məhəllədə məcburi köçkünlərin məskunlaşdığı 4 mərtəbəli binada baş vermiş partlayış nəticəsində məcburi köçkün statusu alan 3 ailənin üzvləri xəsarət alıb".**

APA.az-nın məlumatına görə, bunu Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Gəray Fərhadov söyləyib.

G.Fərhadov deyib ki, artıq bu ailələrdən birinin köçəcəyi mənzil müəyyənləşib. Onun sözlərinə görə, digər iki ailə hazırda yas mərasiminin təşkili ilə məşğul olduğu üçün həmin ailələr sabah mənzillə təmin ediləcəklər.


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Qənirə Paşayeva İranın vitse-prezidenti ilə görüşüb

**Millət vəkili Qənirə Paşayeva İranın vitse-prezidenti Şahindokht Molaverdiyə Azərbaycan həqiqətlərindən danışıb. Bu barədə dünən Qənirə Paşayeva özünün facebook səhifəsində məlumat verib. bununla bağlı belə yazıb. O qeyd edib ki, İranın vitse-prezidenti Şahindokht Molaverdi ilə Dünya Qadın Zirvə toplantısında görüşüb və maraqlı söhbət edib:**

"Azərbaycan dilində çox gözəl danışan xanım Molaverdi Urmiya bölgəsi tərəflərdə doğulub. Hüquq təhsili ilə bərabər, elm və özəlliklə qadın məsələləri ilə geniş məşğul olub. Və prezident Həsən Ruhani seçildikdən sonra vitse-prezident təyin olunub. Çox maraqlı söhbətimizin sonunda inşallah gələn dəfə Azərbaycanda görüşərik dedim və Azərbaycanla bağlı, həqiqətlərimiz, mədəniyyətimizlə bağlı material və hədiyyələrimizi təqdim etdik".

**Qeyd edək ki, İranın vitse-prezidenti Şahindokht Molaverdinin milliyyətcə azərbaycanlı olduğu bildirilir.**

❑ **E.SEYİDAĞA**

# Məşhur diktor Şərqiyyə Hüseynovanın qızı vəfat etdi

**Xalq artisti, diktor Şərqiyyə Hüseynovanın ailəsinə ağır itki üz verib. Onun 1971-ci il təvəllüdlü qızı Mehriban dünyasını dəyişib.**

Bu haqda "Qafqazinfo"nun əməkdaşı ilə söhbətində əməkdar artist Aybəniz Haşımova məlumat verib: "Şərqiyyə xanımın qızı vəfat edib. Mən də indi eşitdim. Heç bir xəstəliyi yox idi, gənc xanım idi. Deyirlər insult keçirib, beyninə qan sızıb".

Qeyd edək ki, mərhumənin Ayan adlı bir qızı var.



# İran prezidenti hicab və internet qadağasını tənqid edib

**İranda hicab qadağası və internet filtirləmələrinə qarşı çıxan İran prezidenti Həsən Ruhani növbəti dəfə məcburi qadağalara qarşı olduğunu bəyan edib. İran prezidentinin rəsmi saytının məlumatına görə, Məşhəd şəhərində yerli fəallarla görüşdə etdiyi çıxışında Ruhani biri sıra məsələlərə, o cümlədən dini qadağalar, korrupsiyaya qarşı mübarizə məsələlərinə toxunub.**

"İctimai dəyərlər və baş örtüyünün əsgər və polis vasitəsilə təmin oluna bilmədiyini bu günə qədər təcrübədən keçirdik. Bu sahədə əsgər və polisin yerinə alimlərimiz, ziyalılarımız və universitet müəllimləri dayanmalıdır. Biz necə bir təbliğat və təşviqat metodundan istifadə edirik, əsgər və polisləmi? Bu işin başqa bir yolu yoxdurmu?" deyə, İran prezidenti bildirib.

**H. Ruhani daha sonra deyib:** "Allaha and olsun ki, bu gün yaşadığımız dünyada gəncləri inandırmaqdan başqa bir yolumuz yoxdur. Zorla olmur. Onu bağlatmaqla, bunu qadağan etməklə bir nəticə əldə etmək mümkün deyil. Divar çəkmək və filtrləməklə işin həll olunacağına zənn edirsiniz. Siz filtr tətbiq edirsiniz, onlar isə filtr qırma proqramı düzəldirlər. Bu problemlər qadağalarla həll olunmaz, əgər həll olunsaydı, bu günə qədər həllini tapardı".

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Avropa Birliyi Rusiyaya qarşı yeni sanksiyalara qərar verdi

**Avropa Birliyi vəd elədiyi kimi, Rusiyaya qarşı növbəti, yeni sanksiyalar tətbiq edilməsi haqda qərarını elan edib. Musavat.com xarici KİV-ə istinadən xəbər verir ki, sanksiyalar Rusiya dövlətinin nəzarətində olduğu iri şirkətlərə - "Rosneft", "Transneft" və "Qazpromneft"ə qarşı yönəlib.**

Bu barədə danışan avropalı diplomat qeyd edib ki, həmin şirkətlərə Avrozonada kapital və kredit cəlb eləmək qadağan olunur. Qərarda bildirilir ki, 1 trilyon rubldan çox dövriyyəsi olan - hansının ki, yarısı neftin satışı və nəqlindən əldə olunan gəlirdi - Rusiya şirkətləri sanksiyaların hədəfi olacaq.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**


# QAT girov götürülən uşaqla bağlı bəyanat yaydı

## "Bu, erməni rəzalətinin növbəti nümunəsidir"

**Qarabağ Azadlıq Təşkilatı (QAT) 15 yaşlı azərbaycanlı uşağın-Cavid Məmmədovun Ermənistanın işğalçı qüvvələri tərəfindən girov götürülməsi ilə bağlı bəyanat yayıb. QAT-dan Musavat.com-a göndərilən bəyanatda C.Məmmədovun girov götürülməsi erməni rəzalətinin növbəti nümunəsi kimi dəyərləndirilir: "Ermənilər bu günə qədər dəfələrlə məhz uşaqları hədəf olaraq seçib, snayper güllləsi ilə 1 azyaşlı uşağı öldürüb, 1 uşaq ermənilərin çayla axıtdıqları oyuncaq-bomba ilə partladılıb, 2 uşaq yaralanıb. Bütün bunlar göstərir ki, ermənilər ən eybəcər hərəkətlərdən də çəkinmir, uşaqlarla müharibə edirlər. Ermənilərin bu dəfə girov götürdükləri uşağın cəmi 15 yaşı var, həmçinin II qrup əlildir. Biz hesab edirik ki, beynəlxalq təşkilatlar Ermənistan işğalçı qüvvələrinin bu antiinsani hərəkətini pisləməli, Ermənistan hökumətindən girovun dərhal azad olunmasını tələb etməlidir. Uşağın girov götürülməsinin özü artıq cinayətdir, onun girovluqda saxlanılması isə onqat cinayətdir və heç bir ölçüyə sığmır. Beynəlxalq Qırmızı Xaç Komitəsi dərhal məsələyə müdaxilə etməli, uşağın azad olunaraq Azərbaycana qaytarılmasını təmin etməlidir".**

❑ **RÖYA**

**Tək-tük imzaları çıxmaqla, hamı Qərbi demokratik ideallara dönük çıxmaqda, elan etdiyi prinsipləri pozmaqda, Azərbaycanda demokratiya qurmamaqda, Qarabağı alıb bizə verməməkdə və s. ittiham edir. Səbəb kimi də digərləri də daxil olmaqla, əsasən neft-qaz, islam faktorunu göstərirlər.**
**Tam yalan və əsassız yanaşmadır. Dünya demokratiyasının lokomotivi olan ABŞ xalqı iki yüz ildən xeyli artıq müddət bundan əvvəl kimsənin köməyi olmadan, kimsədən mədət ummadan özü üçün demokratiya yaradıb və bunun da bəhrəsini artıqlaması ilə görür. İndi o, dünyanın tək super dövlətidir. ABŞ xalqının bu gözəl təşəbbüs və təcrübəsindən istifadə edən bir sıra xalqlar da həmin yolu seçmiş və səadətə qovuşmuşlar.**

**Tofiq YAQUBLU**



# Bircə bu dəfə də oxuyun...

**“Nə vaxt Azərbaycan xalqı demokratiya uğrunda mübarizə aparıb ki, Qərb onu meydanda tək, arxasız buraxıb?”**

**Bu mövzuda oxuduğum sonuncu yazı hörmətli Elşad Paşasoyun yazısı olub. Mən də dostluğumuza ərk edərək misal göstərəcəm, əminəm ki, hörmətli yazar məndən inciməz.**

O da Qərbi ikiüzlülükdə, Azərbaycana yardım etməməkdə qınayıb. Qərbin dünyanın qalan yerində də demokratiya olması istəyinin səmimi olmasına heç kimin şübhəsi olmasın. Bu ilk növbədə onların özünə lazımdır. Təsəvvür edin ki, gözəl villanız var, ətrafı da gözəl çiçəklərlə bürünmüş çəmənlik. Həyətinizin o yanında üfunət, çirkab dolu gölməçələr, siçovullar qaçışan zibilliklər, əlində avtomat gəzişən avaraların sakin olduğu eybəcər gecəqondular olmasını istəyərdinizmi? Əlbəttə ki, yox! Bax, qərb də eləcə. Bəylər və xanımlar, bircə dənə nümunə göstərin ki, Yer üzündə hansısa xalq demokratiya, dünyəvi dəyərlər uğrunda mübarizəyə qalxıb, başda ABŞ olmaqla Qərb onu müdafiə etməyib. Belə hal mövcud deyil. Postsovet dövrünü götürək. Baltikyanı dövlətlərin müstəqilliyə can atmasından bu yanadək Qərb azadlıq və demokratiya istəyən, bunun üçün mübarizə aparan bütün xalqları ciddi müdafiə edib, hətta bu çox risklər yaratsa da belə. Elə sonuncu Ukrayna nümunəsini götürsək hər şey aydın olar. Azyaşlı müxalifət tərəfdarlarını bir kənara qoyaq, nə vaxt Azərbaycan xalqı demokratiya uğrunda mübarizə aparıb ki, Qərb onu meydanda tək, arxasız buraxıb? Ölkə əhalisinin sayı 10 milyon olur. Onun bir faizi 100 min edir. Siz bu 1 faizi, heç olmazsa 0,5 faizi mübarizə meydanında nə vaxt görmüsünüz? Siz ortaya 0,5 faizi qoyun sonra da Qərbdən 99,5 faiz istəyində də.

Bu ölkədə daha hansı miqyasda özbaşınalıq, talançılıq, saxtakarlıq, qanunsuzluq, saymazlıq və s. olmalıdır ki, xalq haqqını tələb etməyə başlasın? Bu xalq demokratikləşmə kimi obyektiv və labüd prosesə inanmır, heç onunla maraqlanmır da, ancaq cəhalət dolu dini rəvayətlərə ürəkdən inanır, gerçəklik kimi qəbul edir.

Bir məhbus tanışım var. Onu məsələn, İsveçdə qanunların işlədiyinə, hamının qanun qarşısında bərabər olduğuna, məhkəmənin nazirlə fəhləyə fərq qoymadığına inandıra bilmədim. Deyir ki, belə şey mümkün deyil, rüşvət hər yerdə var, demokratlar da hakimiyyətə gəlsələr sərvət yığmağa, tənqidçiləri tutmağa başlayacaq. Amma o ürəkdən inanır ki, kim hər səhər tezdən acqarına yeddi xurma yesə, gün ərzində şeytan ona yaxın düşə bilməz. Ölkədə belələri bilirsiniz nə qədərdir?

Tutaq ki, qərblilər əclaf xristianlardır, neftimizi sümürmək istəyən işbazlardır; bəs dostumuz, qardaşımız Türkiyə Azərbaycanın demokratikləşməsi üçün nə iş görüb? O da bizə düşməndir? O nəinki, heç bir iş görməyib, əksinə bu prosesə kifayət qədər maneə olub. Bizimkilərin tələbi budur ki, Qərb demokratiyanı sinidə gətirib bizə hədiyyə versin. Bunun başqa anlamı yoxdur.

Deyirlər ki, Qərb Azərbaycanda demokratiyanın boğulmasına rəğmən boş-boş bəyanatlar verməklə məşğuldur. Sizi əmin edirəm ki, həmin “boş” bəyanatlar hər şeyi həll etməsə də, çox şeyə kömək edir. Yoxsa onlar olmasaydı hamını divara düzüb güllələmişdilər və burada bir Şimali Koreya qurmuşdular. Deyin görək, o “zəif, əhəmiyyətsiz, o xala xətrin qalmasın” bəyanatlar Türkiyədən, İrandan, Səudiyyə Ərəbistanından, Rusiyadan, Çindən və s. niyə gəlmir? Heç kəsə sirr deyil ki, Rusiya, İran bizə qarşı düşməncilik edirlər. Türkmənistanda, Özbəkistanda diktaturaya yaxın bir rejim mövcuddur. Tutaq ki, demokratiya tərəfdarı, demokratik düşüncəli Elşad Paşasoy Azərbaycanın prezidenti oldu. O, bu postda Rusiyanın və İranın bizə düşmən olduğunu bəyan edəcəkmi? Türkmənistanı və Özbəkistanı diktaturanın əsarətində olan ölkələr adlandıracaqmı? Əlbəttə ki, bunu etməyəcək, çünki etmək mümkün deyil. Obyektiv reallıq, ölkənin mənafeyi nəzərə alınmalıdır axı. Bunu etməyəcəksə, bu heç də o, demək olmayacaq ki, Elşad bəy həqiqi demokrat deyil və Rusiyada, İranda, Türkmənistanda və Özbəkistanda demokratiyanın qalib gəlməsini istəmir. Bu anası ölmüş Qərb də eləcədir. Ortada Rusiya, Çin, İran və s. faktorlar var. Hər şey o qədər də asan deyil. Bir Afrikaya, Latın Amerikasına, Asiyaya diqqət edin. Görün bu ölkələrdə demokratiya, insan haqları nə vəziyyətdədir? İndi durub ABŞ bütün dünya ilə müharibə etməlidir? Əgər ABŞ belə səfeh olardısa, o, heç indiki kimi qüdrətli ABŞ ola bilməzdi.

Mən başa düşürəm ki, uman yerdən küsərlər. Bir az özünüzə qapılın, dərin fikirləşin, niyə biz bu məsələlərdə Qərbdən mədət umuruq? Çünki özümüz də bilmədən həqiqi demokratiyanın ünvanını düzgün müəyyənləşdiririk.

Qolu sınıb özünü xəstəxanaya çatdırmış yaralı elə bilir ki, xəstəxananın bütün heyəti işini-gücünü buraxıb onun başına toplaşmalıdır. Çünki qolu çox ağrıyır, dözmək olmur. O, başa düşmür ki, bura yalnız onun kimi ağrı içində olanlar gəlirlər; həkimlər onu eyni dərdlə digərlərindən biri kimi görürlər və növbəsi çatanda müalicə etməyi düşünürlər. Əgər bu vaxt təcili yardım maşını ağır yanıq xəsarəti almış bir nəfəri gətirsə, həkimlər dərhal onun başına toplaşacaqlar. Çünki vəziyyəti daha ciddidir. Odur ki, nə qədər ki, demokratiya uğrunda özümüzü yandırmırıq (məcazi mənada) heç kəs növbədəki xəstəni buraxıb sənin sınıq qolunla məşğul olmayacaq..

Odur ki, hörmətli siyasətçilər və yazarlar, işıq gələn yerə barmaq tıxamaq vərdişindən əl çəkin. Hətta o işıq çox zəifdirsə. Belə yazılar yazmaqdansa, ölkədə baş verən qanunsuzluqlar haqda Qərbdəki lazımi ünvanlara dolğun və obyektiv məlumatlar göndərsəniz daha yaxşı olar. Yazını oxuduğunuza görə təşəkkür edirəm. Çalışacam daha bu haqda yazmayım. Özümüz də yorulduq, sizi də yorduq.

Təkcə bu ölkədə yaltaqların kəmiyyəti haqqında düşünəndə adamı dəhşət təri basır. Onların sayı demokratiyanın zəruriliyini anlayanların sayından ölçüyə gəlməz dərəcədə çoxdur.

***P.S.** Bu yazı şərlənərək həbs edilmiş görkəmli hüquq müdafiəçisi İntiqam Əliyevə ithaf olunub.*

# Prezident idmanla məşğul olur, bəs müxalifət?

## Müxalifət partiyalarının liderlərindən kim 1500 metr üzür, kim gündə 8 km. qaçır...

**“Mən özüm uşaqlıq yaşlarımdan idmanla məşğul olurdum. Bu gün də məşğul oluram və hər bir insana bunu məsləhət görürəm. Ancaq peşəkar idmançı deyildim”.**

Bunu prezident İlham Əliyev ötən həftə Çinin Nankin şəhərində yeniyetmələr arasında keçirilən ikinci Yay Olimpiya Oyunlarında iştirak etmiş milli komandamızın üzvləri ilə görüşündə deyib. İlham Əliyev bildirib ki, o həmişə fikirləşir ki, Azərbaycan idmanını mütləq inkişaf etdirməliyik: “Çünki gözəl potensial, xalqımızın ənənələri, ənənəvi idman növlərimiz var və xalqımız fiziki cəhətdən çox hazırlıqlıdır, güclüdür”.

Müxalifət partiyalarının liderlərinin idmanla məşğul olub-olmadıqlarını araşdırdıq.

**Müsavat Partiyasının başqanı İsa Qəmbər** “İdmanla məşğul olursunuzmu” sualına konkret cavab vermədi.

**KXCP sədri Mirmahmud Mirəlioğlu** bildirdi ki, hər bir insan idmanla məşğul olmalıdır. Elə insanlar isə var ki, idman onun peşəsi və ya hobbisidir. Hər bir halda idman lazımdır: “Bu şəxsi məsələ olduğu üçün bu barədə geniş danışmaq isə doğru deyil. Siz hesab edirsinizsə ki, suala cavab vermək lazımdır, bəli, hər kəs idmanla məşğul olmalıdır. Biz də hər gün idmanla məşğul oluruq və heç bir problem də yoxdur”.

**ADP sədri Sərdar Cəlaloğlu** da idmanla məşğul olduğunu bildirdi: “Həftədə bir dəfə 1500 metr üzgüçüklə məşğul oluram. Digər günlərdə isə hər gün bir neçə kilometr idman gəzintisinə çıxıram. İdmanla məşğul olmaq antik dövrdən insanların məşğuliyyəti olub. Platon deyirdi ki, musiqi insanın ruhunu, idman bədənini nizamlayır, sağlamlaşdırır. İdmanla məşğul olmaq min illərdir fəlsəfədə də təbliğ olunur. Bundan sonra təbliğ olunacaq. Hər bir insan aktiv həyat tərzi yaşamalıdır”.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** qeyd etdi ki, hər bir insan öz sağlamlığının qeydinə qalmalıdır. Sağlamlıq üçün vacib şərtlərdən biri də idmanla məşğul olmaqdır: “Ona görə də mən əvvəllərdə idmanla məşğul olmuşam. İndi də hər gün idmanla məşğulam. Gündə 7-8 kilometr qaçıram. Gün ərzində ən azı 5 kilometr qaçıram. İnsanın sağlamlığı üçün idmanın bu növündən yararlanmağı insanlara tövsiyə edirəm”.

❑ **Etibar SEYİDAĞA**



# “AMAY Abdulla” dekabra qədər həbsdə qalacaq

## Vəkil “AMAY”ın özgəninkiləşdirilməsindən danışmaq istəmir

**“AMAY” ticarət mərkəzinin həbsdə olan rəhbəri Abdulla Abdullayev barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti uzadılıb. Bu barədə APA-ya məlumat verən A. Abdullayevin vəkili Əkbər Bağırov bildirib ki, Binəqədi Rayon Məhkəməsinin qərarı ilə həbs-qətimkan tədbirinin müddəti 3 ay uzadılıb. Vəkil həmin qərardan apelyasiya şikayəti verəcəyini söyləyib.**

Vəkil “Yeni Müsavat”a deyib ki, qəbul olunan son qərara əsasən müvəkkili dekabra qədər həbsdə qalacaq: “Abdulla Abdullayev barəsində seçilən həbs qəti-imkan tədbirinin müddəti sentyabrın 12-də bitirdi. Ona görə də müddəti uzatdılar”.

Vəkil bildirib ki, ittihamları qəbul etmirlər: “Hazırda istintaq gedir. Biz belə hesab edirik ki, istintaqı tez yekunlaşdırmaq da olar. Müdafiəçi kimi bununla bağlı şikayət yazacağıq”.

Vəkil müvəkkilinin səhhətinin normal olduğunu bildirdi: “Mövqemiz belədir ki, bu iş mülki xarakterli işdir, bu işdə cinayət tərkibi yoxdur. Şikayətlərimizi də bu motiv üzərində qurmuşuq”.

Ə.Bağırov deyib ki, A.Abdullayevin işi üzrə müxtəlif şikayətlərlə yanaşı ev dustaqlığına buraxılması haqda da şikayət verilib.

Vəkil A.Abdullayev həbsdə olarkən “AMAY” ticarət mərkəzinin özgəninkiləşdirilməsi haqda məlumatlara da aydınlıq gətirdi: “Bildiyim qədər ”AMAY" ticarət mərkəzi heç vaxt Abdulla Abdullayevin mülkiyyətində olmayıb. Oranın başqa direktoru olub. Bu məsələlərdə istintaqla müdafiə tərəfinin fikir ayrılığı var. Onlar öz dəlillərini irəli sürürlər, biz öz dəlillərimizi. Dəqiq bu məsələlərə məhkəmə baxacaq. Onun olub-olmaması haqda fikir ayrılıqları var".

Vəkil ittihamda yer alan A.Abdullayevin külli miqdarda vəsaitin “AMAY” ticarət mərkəzinin tikintisi üçün kredit götürməsi və kreditin təminatı kimi həmin binanın bir hissəsini göstərməsi haqda danışmaq istəmədi: “Məhkəmə vaxtı bu məsələlər araşdırılacaq. İstintaq yekunlaşanda bu məsələlər aydınlaşacaq”.

**Qeyd edək ki, hazırda Bakı İstintaq Təcridxanasında saxlanılan A.Abdullayevə Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) ittiham elan olunub.**

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 225 (5934) 9 sentyabr 2014

# Qaçqınların məskunlaşdığı bina nədən partlayıb?

# Xırdalanda dəhşətli olayın təfsilatı: 3 ölü, yaralılar və qarşıdurma...

Qaz sızması nəticəsində baş verən bədbəxt hadisə nəticəsində bir neçə nəfər yanıb və ağır xəsarətlər alıb, FHN naziri hadisə yerinə gəldi; yaralıları aparan maşın tıxacda qaldı; xilasetmə işləri dağıntılar altında qalanların yaxınlarının etirazına səbəb oldu, gərginlik yaşandı...



**Sentyabrın 8-də səhər saat 7 radələrində Abşeron rayonunun Xırdalan şəhərində, məcburi köçkünlərin yaşadığı 26-cı məhəllədəki yarımçıq tikilidə güclü partlayış baş verib. Hadisənin qaz sızmasından baş verdiyi güman edilir. Musavat.com-un hadisə yerində olan əməkdaşının verdiyi xəbərə görə, partlayış nəticəsində binanın bir blokunun 3 mərtəbəsi çöküb, 10-dan artıq adam dağıntılar altında qalıb. İkinci və üçüncü mərtəbədəki iri beton panellər uçaraq birinci mərtəbəyə düşüb.**

**Hər iki mərtəbədə yaşayan sakinlər panellərin arasında qalaraq müxtəlif dərəcəli bədən xəsarətləri alıblar.** Hadisə şahidləri bildiriblər ki, partlayışın zərbəsindən ikinci mərtəbədə yaşayan gənc qadın binanın həyətinə düşüb və ilk olaraq o, xəstəxanaya çatdırılıb.

Hadisə yerinə Fövqəladə Hallar Nazirliyinin, Təcili Tibbi Yardım Stansiyasının əməkdaşları və texnikası cəlb olunub. Həmçinin Çevik Polis Alayının onlarla əməkdaşı gəlib. Bununla belə, dağıntı altında qalanların xilas edilməsi xeyli gecikib və bu da bina sakinlərinin və insanların yaxınlarının etirazına səbəb olub.

Fövqəladə Hallar Nazirliyinin yaydığı ilkin məlumatda bildirilib ki, hadisə yerinə nazirliyin müvafiq xilasetmə qüvvələri cəlb olunub. Xilasedicilər tərəfindən 3 nəfər xilas edilib, 2 nəfərin xilas edilməsi istiqamətində isə işlər davam etdirilir.

Partlayış zamanı yaralananların paytaxtdakı xəstəxanalara çatdırılmasında da problem yaranıb. Belə ki, beynəlxalq avtovağzalın yanında yaranan ənənəvi tıxac təcili yardım maşınlarının sərbəst hərəkətinə mane olub.

Partlayışdan bir neçə saat sonra fövqəladə hallar nazirinin müavini, həmçinin Abşeron Rayon İcra Hakimiyyətinin nümayəndələri hadisə yerinə gəliblər. APA-nın hadisə yerində ttp://apa.az/ olan əməkdaşının verdiyi məlumata görə isə, baş prokurorunun 1-ci müavini Rüstəm Usubov, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, rayonun polis rəisi və prokuroru da hadisə yerinə gəliblər. Günorta f ttp://apa.az/övqəladə hallar naziri Kəmaləddin Heydərov da partlayış baş verən binaya baş çəkib və xilasetmə işlərinin gedişi ilə maraqlanıb.

Günorta saatlarında artıq səkkiz nəfərin xilas edildiyi bildirilib. Onlar 1979-cu il təvəllüdlü Abbasova Könül Tofiq qızı, 9 yaşlı Ayxan, 1972-ci il təvəllüdlü İsmayılova Mətanət Elbrus qızı, 2007-ci il təvəllüdlü İsmayılov Bəkir Vidadi oğlu, 1999-cu il təvəllüdlü İsmayılova Aygül Vidadi qızı və 2010-cu il təvəllüdlü Abdullayeva Aytac Gülbala qızı, 1972-ci il təvəllüdlü İsmayılov Vidadi Yunis oğlu və onun oğlu, 2001-ci il təvəllüdlü İsmayılov Yunis olub. Onlar FHN-nin xilasediciləri tərəfindən xilas edilərək təcilli tibbi yardım həkimlərinə təhvil verilib.

**Daha sonra isə məlum olub ki, bir neçə nəfər də dağıntılar altında qalıb və onları xilasetmə cəhdləri binanın bir hissəsinin tamamilə uçmasına səbəb ola bilər.** Bu səbəbdən həmin insanların yanına zirzəmidən keçməyə cəhd edilib. Həmçinin binanın uçmaması üçün əraziyə taxta dirəklər gətirilib. FHN-in xilasediciləri dağıntılar altına binanın zirzəmisinə keçməyə çalışsalar da, bir neçə saat ərzində bunu edə bilməyiblər. Şahidlərin sözlərinə görə, iki nəfərin yeri təxmin edilsə də, onları bir neçə saat xilas etmək mümkünsüz olub. Xilasedicilər həmin şəxslərin sağ olduğunu, göründüklərini, ancaq onlara yetişməyin hələlik mümkün olmadığını bildiriblər. Buna səbəb binanın uçmuş iki mərtəbəsinin əmələ gətirdiyi daş və beton qalıqları olub. Bu isə FHN və polis əməkdaşları ilə uçqun altında qalan insanların yaxınları arasında mübahisəyə və qalmaqala səbəb olub. Xilasedicilərin təhlükəsizlik məqsədilə gördüyü işlər xilasetmə işlərini ləngitdiyindən, uçqun altında qalanların yaxınları duruma etirazlarını bildiriblər və tərəflər arasında əlbəyaxa dava baş verib.

**Səhiyyə Nazirliyinin Xırdalanda yaşayış binasında baş vermiş partlayışla əlaqədar yaydığı ilk rəsmi məlumatda isə xəsarət alanların müxtəlif xəstəxanalara yerləşdirildiyi bildirilib.** Belə ki, 1 qadın Sumqayıt Mərkəzi Xəstəxanasına, 2 nəfər - ata və oğul Respublika Yanıq Mərkəzinə, 5 nəfər isə Kliniki Tibbi Mərkəzə aparılıb. Kliniki Tibbi Mərkəzə aparılanlardan 1-i artıq ilkin tibbi müayinələrdən sonra evə buraxılıb. 1 uşaq müalicə alınmaq üçün Neyrocərrahiyyə Xəstəxanasına köçürülüb, 3 nəfərin müalicəsi isə hazırda xəstəxanada davam etdirilir. Xəstələrin vəziyyəti ağır və normal olub.

Günortadan sonra isə bir neçə saatlıq xilasetmə tədbirlərindən sonra bir kişinin meyiti dağıntılar altından çıxarılaraq morqa aparılıb. Həmçinin daha bir nəfərin də xilas edildiyi bildirilib. Sakinlər isə bildiriblər ki, bir qadın da təcili yardım maşınında dünyasını dəyişib.

Kliniki Tibbi Mərkəzin baş həkimin müavini Adil Salahov isə günortadan sonra APA-ya açıqlamasında deyib ki, xəstəxanaya gətirilən 5 nəfərdən biri Respublika Yanıq Mərkəzinə göndərilib, qalan 4 xəstənin müalicəsi isə davam etdirilir. A.Salahov qeyd edib ki, onlardan 1-i xəstəxananın reanimasiya, 2-si uşaq, 1-i isə I cərrahiyyə şöbəsindədir. Xəsarət alanlardan 1972-ci il təvəllüdlü İsmayılova Mətanət Elbrus qızı kəllə-beyin travması, qolun, bazunun, almacıq sümüyünün, 11-ci bel fəqərəsinin sınığı, döş qəfəsinin əzilməsi ilə xəstəxanaya gətirilib. Hazırda onun vəziyyəti ağırdır. 2007-ci il təvəllüdlü İsmayılov Bəkir Vidadi oğlu bədənin çoxsaylı əzilmələri, 2010-cu il təvəllüdlü Abdullayeva Aytac bədənin küt travması ilə xəstəxananın uşaq şöbəsində yatır. 2000-ci il təvəllüdlü İsmayılov Yunis Vidadi oğlunun yanıq xəsarətləri olduğu üçün Respublika Yanıq Mərkəzinə göndərilib. 15 yaşlı İsmayıllı Aygün Vidadi qızı aşağı ətrafının didilmiş, cırılmış yarası ilə I cərrahiyyə şöbəsində müalicə alır. Bildirilib ki, xəstələrdən Mətanət İsmayılovanın vəziyyəti ağır, digərlərinin vəziyyəti isə kafidir.

"Xırdalan şəhəri, 26-cı məhəllədə məcburi köçkünlərin məskunlaşdığı dördmərtəbəli binada baş vermiş partlayış nəticəsində birinci və üçüncü mərtəbədə yaşayan Qubadlı rayonundan köçkün düşmüş iki ailənin mənzilləri də yararsız vəziyyətə düşüb". Bunu isə APA-ya açıqlamasında Qubadlı Rayon İcra Hakimiyyəti başçısının müavini, Rayon Fövqəladə Hallar Komissiyasının sədri Allahverdi Haxverdiyev söyləyib.

O bildirib ki, hər biri 5 və 4 nəfərdən ibarət olan bu ailələrin 2 üzvü dağıntılar altında qalıb, hazırda xilasetmə işləri aparılır. A.Haxverdiyev hər iki ailənin bu günlərdə Mehdiabadda mənzillə təmin ediləcəyini bildirib.

**Partlayış baş verəndən on saat sonra hələ də dağıntı altında iki nəfər qalmışdı. Saat 19 radələrində daha bir nəfərin meyiti dağıntılar altından çıxarılıb. Bununla partlayışda ölənlərin sayı üçə çatıb. FHN açıqlama yayaraq bildirib ki, dağıntılar altından üç nəfərin meyiti çıxarılıb. Bunlar Məharət Abbasov, 1965-ci il təvəllüdlü Abbasova İfayət Bəhram qızı və 2006-cı il təvəllüdlü Abbasova Aydan Məharət qızıdır. Uçqun altında qalan səkkiz nəfər isə xilas edilib.**

❑ Röya RƏFİYEVA
Fotolar müəllifindir













YENİ MÜSAVAT
N 225 (5934) 9 sentyabr 2014

# Ziya Məmmədovun infarkt keçirməsi xəbəri yayıldı

## Nəqliyyat nazirinin təcili Türkiyəyə aparıldığı deyilir; nazirlik isə onun qardaş ölkədə olduğunu təsdiqləsə də, infarkt keçirməsini təkzib edir

**Nəqliyyat naziri Ziya Məmmədov özəl təyyarə reysi ilə təcili Türkiyəyə aparılıb. Analitik.az saytına daxil olan məlumata görə, nazirin axşam saatlarında vəziyyəti qəfildən pisləşib.**


Ziya Məmmədov

Sayt yazır ki, ürəyində kəskin ağrılar hiss edən nazirin infarkt keçirdiyini həkimlər bildirəndən sonra, yaxınları dərhal onu Türkiyəyə aparmaq qərarını veriblər. Hazırda Türkiyədə məşhur xəstəxanalardan birində müalicə olunmaq məqsədilə yerləşdirilən Z.Məmmədovun səhhətinin son vəziyyəti barədə dəqiq məlumat verilmir.

Ancaq saytın yaydığı bu xəbər sentyabrın 8-də təkzib olundu. "Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədovun infarkt keçirməsi və təcili olaraq müalicə üçün Türkiyəyə aparılması ilə bağlı yayılan xəbərlər həqiqətə uyğun deyil".

Bu barədə oxu.az-a Nəqliyyat Nazirliyindən bildiriblər. Nazirlikdən daxil olan məlumata görə, nazir Ziya Məmmədov hazırda Türkiyədə səfərdə olsa da, bu, müalicə məqsədi daşımır. "Nəqliyyat naziri Ziya Məmmədov hazırda məzuniyyətdədir və o, qanunvericiliklə nəzərdə tutulmuş məzuniyyət hüququndan istifadə edərək, istirahət etmək üçün qardaş Türkiyə Cümhuriyyətini seçib.

Hazırda nazir Ziya Məmmədov Türkiyədə istirahətini davam etdirir. Onun səhhətinin pisləşməsi ilə yayılan xəbərlər heç bir şəkildə həqiqəti əks etdirmir. Bu növ yalan məlumatların yayılması yalnız müxtəlif mətbu orqanların diqqəti özünə cəlb etmək, reytinq qazanmaq cəhdlərindən başqa bir şey deyil".

NN-dən verilən açıqlamada daha sonra deyilir: "Təəssüf hissi ilə qeyd etməliyik ki, bu gün Azərbaycan mətbuatında əsas peşəsi ucuz reytinq ardınca qaçmaq olan müxtəlif qəzetlər, saytlar da var. Artıq dəfələrlə müşahidə olunub ki, bəzi saytlar qeyri-peşəkar fəaliyyətləri ucbatından oxucu kütləsi cəlb edə bilmədikləri üçün ölkəmizin müxtəlif dövlət məmurları, nazirləri, siyasi və ictimai xadimləri haqqında yalan, həqiqətə uyğun olmayan məlumatlar yaymaqla diqqəti özlərinə yönəltmək, məşhurlaşmaq istəyirlər.

**Digər təəssüflə qeyd olunası məqam isə ondan ibarətdir ki, ölkənin media bazarında xeyli müddətdir fəaliyyət göstərən, kifayət qədər ad-sana malik müxtəlif xəbər portalları da, dünənə qədər adını eşitmədikləri, haradan peyda olduğu qaranlıq qalan birgünlük saytların yalan xarakterli məlumatlarını heç bir şəkildə yoxlamadan, dərhal dərc edirlər, və bununla da, həmin saytlarla eyni səviyyədə qeyri-peşəkar iş nümayiş etdirmiş olurlar" deyə, nazirlikdən daxil olan məlumatda bildirilir.**

❑ **Hazırladı: E.SALAMOĞLU**

# Müxalifət "zakrıt, vse uşli v facebook"...

## Partiyaların fəallığı, mitinqləri reallıqdan virtuala transformasiya olunub; Elxan Şahinoğlu: "Bu, siyasi təşkilatların tənbəlliyidir"

**Rus-alman müharibəsi dövrünün məşhur bir şüarı vardı: "Raykom zakrıt, vse uşli na front!". Yəni, "Raykom bağlıdır, hamı cəbhəyə gedib!" Bu şüar hazırkı müxalif düşərgənin əhval-ruhiyyəsini ehtiva edir. Təəccübləndiniz? Vaxtilə kütləvi aksiyalar, mitinqlə keçirən müxalifət partiyaları virtuala köç ediblər.**




İndi mitinqlər də, inqilablar da sosial şəbəkə olan facebooka transformasiya olunub. Halbuki fəalların virtualda təşkilatlanıb etirazları reallığa çevirməsi gözlənilirdi. Ancaq Azərbaycanda...partiyaların fəalları, gənclər təşkilatlarının üzvləri ədalətsizliyə facebookda etiraz edir, elə virtualda qətnamə oxuyur, bəyanat yayırlar. Odur ki, hazırkı mənzərə "Raykom zakrıt, vse uşli na front" şüarını yada salır. İndi onu bu cür ifadə etmək olar: "Oppozisiya zakrıt, vse uşli v Facebook ..."

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi analitik Elxan Şahinoğlunun** fikrincə, virtual aləmdə mütəmadi olmaq insanı tənbəlləşdirir. Onun sözlərinə görə, müxalif fəalların əksəriyyətinin günü kompüter arxasında status, rəy yazmaqla keçir. Siyasi şərhçi sosial şəbəkədə vəziyyətdən çıxış üçün ciddi müzakirələrin də getmədiyini müşahidə edir. E.Şahinoğlu Müsavatın qurultayına hazırlıq və namizədlərin rayonlarda keçirdiyi görüşləri istisna etməklə, müxalifət düşərgəsində bir canlanma hiss olunmadığı qənaətindədir:"Sosial şəbəkə ünsiyyət və fikrini ifadə etmək üçün gözəl imkandır. Ancaq mənfi tərəfi var - insanı tənbəlləşdirməsidir. Təbii ki, mən də vaxtımı kompüter arxasında keçirirəm. Lakin siyasi ekspert kimi bu, mənim işimdir. Siyasətçi isə fəaliyyətini facebookla məhdudlaşdıra bilməz. Biz isə görürük ki, çoxları ancaq status yazmaqla məşğuldur. Bu mənada bir passivlik var" deyə, politoloq mənzərəni şərh edir.

**Ekspert son hadisələrə dair müxalifət düşərgəsindən ciddi bir reaksiya olmadığını düşünür:** "NATO sammiti, cəbhə xəttinə baş verənlər və ölkəmizlə bağlı başqa hadisələr oldu. Müxalifətin küçə yürüşlərini bir kənara qoyaq, hətta ciddi konfransı, səs-küylü toplantısı, dəyirmi masa belə keçirilməyib. Liderliyə iddialı siyasətçilər toplantılarda çıxışlar etməlidir, Azərbaycana hansı qərarların ziyan, hansı addımları xeyir gətirdiyini danışmalıdırlar, fikir mübadiləsi olmalıdır, iqtidarın yanlışları göstərilməlidir".

**E.Şahinoğlu virtuala "köçən" müxalifətin qarşıdakı bələdiyyə seçkilərində iştirakdan kənar qalmasını da siyasətçilər üçün doğru addım saymır:** "Razıyam ki, bələdiyyənin səlahiyyətləri məhdudlaşıb, seçkilər saxtakarlıqla keçiriləcək. Amma bu əsas vermir ki, seçki yarışından kənarda qalasan, passiv olasan. Bu, siyasi təşkilatların tənbəlliyidir. Müxalifətin işi prosesləri fəallaşdırmaqdır, insanları inandırmaqdır. Passivliyin günahını cəmiyyətdə axtarmaqdansa, öz səhvlərini də etiraf etmək lazımdır. Yeganə arqument seçki saxtakarlığıdır. Müxalifət öz səhvlərini etiraf etsə, onun böyüklüyü olar. Təkcə günahı hakimiyyətdə axtarmaq çıxış yolu deyil. Deyilə bilər ki, iqtidar azadlıqları boğur, sərt siyasət aparır, mitinqlərə qoymur. Amma bu siyasət 1998-ci ildə də vardı və müxalifət o zaman daha güclü idi. Deməli, liderlərin də səhvləri olub ki, bugünkü vəziyyət yaranıb".

Politoloq hesab edir ki, müxalifətin getdikcə potensialı daralır: "Sosial şəbəkələrdə gənclərin bir qədər fəallığı görünür. Liderlər arabir status yazırlar. Amma Qərb və Türkiyə nümunəsində "tvitter" amili var. Bu şəbəkədən açıqlamalar paylaşılır, fikirlər irəli sürülür. Müxalifət liderlərinin bu istiqamətdə də bir fəallığını görmürəm. Məsələ tək müsahibə verməklə bitmir. Liderlər özünə tənqidi yanaşmırlar. CHP qurultayında Məhərrəm İncə gözəl çıxış etdi ki, 9 ildir seçkilərdə Ərdoğana uduzuruq, bu ortaq vahid namizəd də bir yol olmadı. Yəni, hakimiyyəti günahlandırmaqla yanaşı, öz səhvlərini də görmək bacarığı olmalıdır. O baxımdan müxalifət facebookda ilişib-qalıb".

❑ **E.SALAMOĞLU**

# Bəşər Əsəddən daha qorxunc olan Putin



**Azər RƏŞİDOĞLU**

**Suriya prezidenti Bəşər Əsəd dinc insanları qətlə yetirməkdə davam edir. Dünyanın başı Rusiya - Ukrayna savaşına qarışdığı bir zamanda Suriya diktatoru yenidən kimyəvi silahlardan istifadə etdi. Xatırladaq ki, B. Əsəd ordusu kimyəvi silahdan istifadə etməsi nəticəsində indiyədək 2 min 273 insan həyatını itirib. Həyatını itirənlərdən 68 faizi uşaqlardır.**

Ümumiyyətlə, dünyanın nəzərlərinin Ukraynaya dikildiyi bir zamanda Bəşər Əsəd ona son dərəcə zəruri olan zamanı qazana bildi.

İndi super güclərin hədəfində B. Əsəd deyil, Rusiya prezidenti Putin və yaxud Yaxın Şərqi vahimədə saxlayan İŞİD terrorudur.

Bütün qonşu ölkələri işğalla hədələyən Putin və yaxud terrorçu İŞİD istənilən diktatordan daha qorxuludur. Suriya prezidenti bütün mənalarda İŞİD lideri Əbu Bəkr Bağdadidən və ağlını itirmiş Putindən daha rasional siyasətçiyə bənzəməyə başlayıb.

Elə bu baxımdan da B.Əsədin mövqeləri yenidən güclənməkdədir. Araşdırmaçılar hesab edirlər ki, sələfi və təkfirçilərə qarşı mübarizədə haradasa bir nümunə olan Suriya diktatoru Bəşər Əsəd İŞİD-lə savaşda da öndə olmalıdır. Rusiyanın Ukraynanı işğalı fonunda isə Suriya ümumiyyətlə görünmür. Bir sözlə, son olaylar B. Əsədin önəmini artırır. Burada daha bir mühüm amil də mövcuddur. Suriya hökumətinin başında duran

B.Əsəd öz ölkəsinin əhəmiyyətli bir hissəsi tərəfindən dəstəklənir. Ordu isə tam diktatorun tərəfindədir.

B.Əsəd gerçək bir diktatordur, lakin Suriya lideri İŞİD kimi terrorçu qurumlardan fərqli olaraq beynəlxalq ictimaiyyəti də nəzərə alır, lazım gələndə geri çəkilməyi də bilir. Ölkənin idarə edilməsində B. Əsədin konkret strategiyası mövcuddur. Suriya prezidenti bütün nöqsanlarına baxmayaraq, əhalinin problemlərini həll etməyə, ölkədəki dini və siyasi azlıqların təhlükəsizliyinin təminatçısı olmağa çalışır. B. Əsəd Suriyası dünyəvi quruluşa malik olmaqla yanaşı, bölgədəki müsəlmanların son sekulyar qalası kimi təqdim olunur.

Qonşularını işğal edən Rusiya və yaxud dünyanı terror qorxusu altında saxlayan İŞİD-lə müqayisədə Qərb B. Əsədə minnətdar olmalıdır. Bu situasiyada lənət oxunacaq təşkilat İŞİD, siyasətçi isə Rusiya prezidenti Vladimir Putindir.

Maraqlıdır ki, B. Əsədin proseslərə müdaxiləsinə Qərb də göz yumur. Qərbə bölgənin tam xaosa sürüklənməsi vacibdir. Vaşinqton İranın da proseslərə müdaxiləsini istəyir. Qərb ideoloqlarına görə, bölgə başdan-ayağa məzhəb savaşına girməlidir. Artıq İraqda kürdlər müstəqillik əldə etməyə yaxın görünürlər. İŞİD-in törətdiyi vəhşiliklər İraq şiələrini də ayağa qalxmağa vadar edir. Bu günün reallığına görə, B. Əsəd İraq şiələrinin ən yaxın müttəfiqlərdən hesab edilir.

ABŞ Yaxın Şərqdə xaos yaratmaqla istəyinə nail olmaq niyyətindədir. Lakin terrorçulara həddən ziyadə yaxın məsafədə olmaq Qərb diplomatiyasına başağrısı gətirməyə bilməz.

Son proseslər də onu deməyə əsas verir ki, ABŞ diplomatiyası Yaxın Şərqdə çətin bir duruma düşüb.

B.Əsədin ABŞ-ın bütün səylərinə baxmayaraq hakimiyyətini qoruya bilməsi və yenidən fəal oyunçuya çevrilə bilmək şansı "Sem dayı"nın xarici siyasət kursunun fiaskosu kimi dəyərləndirilə bilər.

Vaşinqtonun siyasətindəki boşluq yalnız B. Əsədlə bitmir.

Səudiyyə Ərəbistanı, Qatar, Küveyt və Türkiyə hər biri bölgədə öz oyununu oynamağa başlayıb. Bu, Vaşinqtonun manevr imkanlarına öz təsirini buraxmaya bilməz.

**ABŞ bölgədə "İslam düşməni" kimi təqdim olunmağa başlayıb. Belə münasibət Vaşinqtonun imicini əsaslı dərəcədə sarsıdır. Bu kimi vəziyyətlərdə köhnə müttəfiqlərə ehtiyac yaranır. B. Əsəd də yaranmış situasiyada yenidən cəlbedici fiqura çevrilir...**

# "İREX Azərbaycan"ın rəhbəri ölkəni tərk edib

## Təşkilatın hüquqşünası: "İşləyə bilmirik"


Ələsgər Məmmədli

**"İREX Azərbaycan" təşkilatının əməkdaşları hazırda ofisdədir, amma prokurorluq əməkdaşları təşkilatın kompüterlərini götürüb apardığına görə işləyə bilmirik". Qurumun hüquqşünası Ələsgər Məmmədli sentyabrın 8-də "Mediaforum" saytına belə deyib.**

Təşkilatın əməkdaşlarının istintaqa çağırılıb-çağırılmadığına gəlincə, Ələsgər Məmmədli deyib ki, bu barədə məlumata malik deyil. Onun sözlərinə görə, "İREX Azərbaycan" təşkilatının rəhbəri Anjelina Nikaora Azərbaycanı tərk edib. Ofis rəhbərinin Bakını tərk etməsinin Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaqı aparılan cinayət işi ilə bağlı olub-olmadığına gəlincə, Ələsgər Məmmədli bildirib: "Anjelina Nikaroanın Azərbaycandan getməsi gündəlik işlə bağlıdır. Onun Bakıya qayıdıb-qayıtmayacağı məlum deyil. "İREX Azərbaycan" təşkilatı Azərbaycandakı layihəsini yekunlaşdırmaq üzrədir".

Hüquqşünas bildirib ki, iyulun 26-dan "İREX Azərbaycan"ın bank hesablarına həbs qoyulub, ona görə də təşkilat öz əməkdaşlarına əməkhaqqı verə, vergi ödənişlərini və Dövlət Sosial Müdafiə Fonduna ödənişləri həyata keçirə bilmir.

**Sentyabrın 5-də Baş Prokurorluğun əməkdaşları İREX-in Bakı ofisində axtarış apariblar. Prokurorluq əməkdaşları ofisdəki kompüterləri, digər avadanlığı, sənədləri aparıblar. "İREX Azərbaycan" təşkilatı aparılan əmlak və sənədlərin qaytarılması üçün məhkəməyə müraciət edib.**

# Əvəz Zeynallının daha bir məhkəməsi


Əvəz Zeynallı

**Bakı Apelyasiya Məhkəməsinin hakimi Həmid Həmidovun sədrliyi ilə iddiaçı Əvəz Zeynallının Vergilər Nazirliyinə və Vergilər Nazirliyi yanında Vergi Audit Departamentinə qarşı "N saylı, 22.02.2012-ci il tarixli səyyar vergi yoxlaması aktının etibarsız hesab edilməsi barədə" iddia tələbinə baxılıb.**

"Xural" qəzetinin hazırda 10 saylı cəzaçəkmə müəssisəsində saxlanılan baş redaktoru Əvəz Zeynallı məhkəmədə iştirak etməyib. Vəkil Elçin Sadıqov xural.com-a bildirib ki, məhkəmə qərardaddan şikayəti təmin etməyib.

Hakim qərardan şikayətə baxılması üçün oktyabrın 30-a məhkəmə təyin edib.

E.Sadiqov Ə.Zeynallının məhkəmədə iştirakının təmin olunması üçün hakimə ərizə yazmalı olduğunu bildirib, bundan sonra onun məhkəmədə iştirakının təmin olunması məsələsinə baxılacağını qeyd edib.

Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsində jurnalistə 9 il azadlıqdan məhrumetmə cəzası çıxarılarkən həmin akta da istinad olunub və məhkəmə hökmündə Əvəz Zeynallıdan 4076 manat vergi borcunun tutularaq, dövlət büdcəsinə ödənilməsi tələbi əksini tapıb.

**Vəkil Elçin Sadıqov səyyar vergi yoxlaması aktının etibarsız hesab edilməsi barədə vəsatətlərin təmin olunmaması məsələsinə münasibət bildirərkən deyib: "Hakimin bu qərarı gözlənilən idi".**

# Hicab məhbusu bir aydır "kars"da saxlanılır


İlham Hətəmov

**Bir aydan artıqdır ki, siyasi məhbuslar - Araz Quliyev və İlham Hətəmov "kars"da saxlanılırlar. Musavat.com-un xəbərinə görə, bu barədə islamazeri.az portalı məhbusların yaxınları istinadən məlumat veriblər.**

Məlumatda deyilir ki, 14 Saylı Cəzaçəkmə Müəssisəsində (CÇM) "kars"da saxlanılan təsisçi-baş redaktor Araz Quliyev və hicab məhbusu İlham Hətəmov səhhətlərində yaranan narahatçılıqla əlaqədar cəzaçəkmə müəssisəsində olan tibb məntəqəsinə köçürülməli olsa da, CÇM-nin rəisi hələ də hər iki inanclını "kars"da saxlayır. O səbəbdən hər iki ailədə narahatçılıq yaranıb.

Ailə üzvlərinin sözlərinə görə, müəssisə rəhbərliyinin atacağı addımdan sonra valideyn olaraq rahat ola bilərlər. "Biz valideynlərin tələbi budur ki, övladlarımız şərlənərək həbs edilsə də onlar həbsxanada sağlam yaşayıb ailələrinə qayıtsınlar", - deyə müraciətdə bildirilir.

**Qeyd edək ki, cenubnews.com-un baş redaktoru Araz Quliyev 8 il, İlham Hətəmov isə 5 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.**

# Deputatlar "paralel dövlət" ittihamına cavab verdilər


Aqil Ələsgər

**Türkiyənin AKP-yə yaxın "A Haber" telekanalında bir proqrama qatılan azərbaycanlı jurnalist Aqil Ələsgər bildirib ki, Azərbaycanda deputatlar Fazil Mustafa, Qənirə Paşayeva, Rəbiyyət Aslanova, Ceyhun Osmanlı və məmur Elnur Aslanov "Gülən camaatı" şəbəkəsinin fəal üzvləridir.**

Aqil Ələsgərin sözlərinə görə, Azərbaycanda "Paralel dövlət"in maliyyə mənbəyi SOCAR, SOCAR-da isə bu şəbəkənin dayağı vitse-prezident Xalik Məmmədovdur. Jurnalist xatırladıb ki, SOCAR-ın Türkiyə təmsilçisi Xalik Məmmədovun oğludur.

**A.Ələsgərin "Gülən camaatı"nın təmsilçisi adlandırdığı şəxslərdən Fazil Mustafa "Paralel dövlət"lə bağlı efirə gedən verilişlərdə adının hallanmasına sərt reaksiya verib. Deputat bu barədə şəxsi facebook səhifəsində yazıb:** "Dostlardan biri zəng edib bildirdi ki, Türkiyənin "A Haber" telekanalının bir proqramında iştirak edən Ələsgər soyadında Azərbaycandan olan bir "ilahiyyatçı" Türkiyədə məşhur bir ifadə olan "Paralel yapı" mövzusuna toxunarkən Azərbaycanda bu yapını dəstəkləyən əsas şəxslərdən biri olaraq mənim adımı çəkib. Bu və ya gələcəkdə bu mövzuda danışmaq istəyən bütün gerizəkalılara bir məsələni çatdırmaq istəyirəm ki, Türkiyə daxilində baş verən proseslər mənim maraq dairəmdə deyil və hər hansı bir yapını dəstəkləmək barədə də hansısa bir açıqlama verməmişəm".

**F.Mustafa bir qədər sonra isə yazıb ki, artıq məsələni araşdırıb, həmin verilişin çəkilişini Aqil Ələsgər ona göndərib:** "Çıxış onun tərəfindən edilib və mənim şəxsimə də, Qənirə Paşayevaya da paralel yapını dəstəkləmək iddiası ilə böhtan atılıb. Bu gün göstəriş verdim ki, parlamentdə çıxışlarımın stenoqramı çıxarılsın. Müsahibələrimin, yazılarımın da kopyası hazırlansın. Məsələnin hüquqi tərəfi bir az vaxt aparacaq. Türkiyədə kimlərəsə xoş görünmək üçün Azərbaycanın bütün lisey məzunu olan insanlarını gənclərimizi dövlət çevrilişində suçlamağa cəsarət edən bu şəxs bunları isbatlamağa borcludur.

Bu adamlar hələ də dərk etmək iqtidarında deyillər ki, nə Ərdoğan, nə Fətulla Gülən mənim üçün hansısa avtoritet deyil, eyni zamanda onların görüşlərinin bizim dövlət və din modelimizin mahiyyətində yer alacaq qədər mükəmməl olduğunu düşünmürəm, Türkiyənin içində gedən hakimiyyət davası da bizi maraqlandırmır. Sadəcə, Azərbaycanda mənim fikrimcə, yaxşı təhsil verən məktəbləri birdəfəlik silmək təhsilimizə vurulan böyük zərbə idi, yaxşı ki, Azərbaycan iqtidarı fərqli formada da olsa bu yanlışı düzəldərək bu təhsil bazasını qoruyub saxladı".



**Fazil Mustafa:** "Türkiyə daxilində baş verən proseslər mənim maraq dairəmdə deyil"



**Qənirə Paşayeva:** "Mənimlə bağlı yanlış məlumatlar verilib və ifadələr işlədilib"

**Deputat Qənirə Paşayeva** da adının "paralel dövlət" qruplaşması ilə birgə çəkilməsi ilə bağlı açıqlama verib. Xanım deputat ona bu cür böhtan atanları və arxasında dayananları ilk öncə Allaha həvalə etdiyini deyib: "Özümə söz vermişdim ki, fəaliyyətim dövründə jurnalist həmkarlarım hətta haqqımda haqsızlıq, ədalətsizlik yazsalar belə onları məhkəməyə verməyim. Çox təəssüf edirəm ki, bəziləri bundan çox sui-istifadə edirlər. Türkiyənin "A Haber" kanalında çıxış edən jurnalist həmkarımız Aqil Ələsgər Türkiyənin daxili məsələsi olan "Paralel yapı" mövzusunda çıxış edəndə onun Azərbaycan ayağı deyə açıqlamalar verdiyi zaman bir sıra dövlət məmurları və millət vəkilləri arasında mənim də adımı çəkib. Özünə də etirazımı bildirdim. Videonu izlədim. Adımın bu cür mövzular içərisində hallanması xoşagəlməz olduğu kimi, mənimlə bağlı yanlış məlumatlar verilib və ifadələr işlədilib.

Mənim türk məktəblərinin tədbirlərində və türkcə olimpiadalarda iştirak və çıxışımı əsas götürüb xoş olmayan ittiham irəli sürən jurnalist həmkarımıza xatırlatmaq istəyirəm ki, həmin tədbirlərdə Türkiyə və Azərbaycanın demək olar ki, əksər dövlət xadimləri, ziyalıları, millət vəkilləri də iştirak ediblər və mənim həmin tədbirlərdə iştirak etdiyimə görə bu gün hansısa doğru olmayan ittiham səsləndirmək böyük haqsızlıqdır, məntiqsizlikdir və ciddi insanlar məsələnin arxasında əslində nələrin dayandığını çox gözəl bilirlər".

**Q.Paşayeva sonra bildirib ki, dövlətimiz və onun təhlükəsizlik qurumları, o cümlədən qardaş Türkiyənin də təhlükəsizlik orqanları kimin kim olduğunu və kimə işlədiyini də çox yaxşı bilirlər:** "Mən hər zaman sadəcə dövlətimə xidmət edən bir insan olmuşam və ona görə də bunu çəkinmədən söyləyə bilirəm. Siyasi düşüncə olaraq da hər zaman cənab prezidentin yanında olmuşam. Bir az əvvəl isə millət vəkili dostlardan biri mənə bu mövzu ilə bağlı maraqlı məlumatlar da verdi. Məlum oldu ki, Türkiyənin yeni prezidenti seçilmiş Rəcəb Tayyib Ərdoğana özünü daha yaxın göstərmək, bundan istifadə etmək istəyən bir dəstə azərbaycanlı var və onlar bu kimi fəaliyyətlərin əsas ilhamvericiləridir.

Yazıqlar olsun... Mən hər zaman Türkiyənin yeni seçilmiş prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyənin bütün siyasi liderlərinə, partiya sədrlərinə saygı ilə yanaşmış onların haqqında heç zaman xoş olmayan ifadələrlə çıxış etmədiyim kimi Türkiyənin daxili siyasətinə də qarışmamışam. Hər zaman Türkiyə xalqının iradəsinə saygı ilə yanaşmışam. Çünki mən Türkiyə deyil Azərbaycan vətəndaşıyam və yanaşmamız da bu cür olmalıdır. Mənim üçün ən önəmli məsələ qardaş Türkiyənin hər zaman güclü olması, Azərbaycan-Türkiyə münasibətlərinin daha da inkişafıdır və əlimdən gəldiyi qədər hər zaman bunun üçün iki qardaş ölkənin münasibətlərinin inkişafı üçün çalışmışam. Bəzi şəxslər kimi şəxsi maraqlarım öndə olmayıb...Mənə bu cür böhtan atanları və arxasında dayananları isə ilk öncə Allaha həvalə edirəm. Çünki onun məhkəməsindən xilas olmağa bəndəyə heç kəs kömək edə bilməz".

**Aqil Ələsgərin sözügedən açıqlamaları hansı mənbəyə, hansı faktlara əsaslanaraq efirdə səsləndirdiyini öyrənmək üçün onunla əlaqə saxlamaq mümkün olmadı.**

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 225 (5934) 9 sentyabr 2014





# Ümid Partiyası Göyçay, Yevlax və Sabirabadda görüşlər keçirdi



**Sentyabrın 6-da Ümid Partiyası İcra Aparatının rəhbəri Taleh Əliyev, sədrin informasiya və mətbuat üzrə müavini Elman Abbasov Göyçay və Yevlaxda, sentyabrın 7-də isə Sabirabadda partiya fəalları, bələdiyyə seçkilərində namizəd olacaq partiya üzvləri ilə görüşüblər. Sabirabadda keçirilən görüşdə Ümid Partiyası sədrinin təşkilatı məsələlər üzrə müavini Bakir Həsənbəyli də iştirak edib.**

Partiya funksionerləri ölkədə, regionda və dünyada baş verən ictimai-siyasi vəziyyət, partiyanın seçkilərə qatılmasının əhəmiyyəti və səbəbləri ilə bağlı məruzə ilə çıxış ediblər, mövzu ilə bağlı sualları cavablandırıblar. Onlar həmçinin, seçkilərə hazırlıqla bağlı tədbir iştirakçılarına öz tapşırıq və tövsiyələrini veriblər.

Partiyanın yerli şöbə sədrləri namizəd olacaq şəxslərin ilkin siyahısını Aparat rəhbərinə təqdim ediblər, bələdiyyə seçkilərinə hazırlığın vəziyyəti və yarana biləcək problemlərlə bağlı məlumat veriblər.

Partiya sədrinin və funksionerlərin bölgələrə səfəri davam edir.



















**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Alternativ fırıldaq

Zamin HACI
zaminhaci@gmail.com

**Yapistlərin bütün işlərinin quru reklamdan, bər-bəzəkdən ibarət olduğunu bilirik. "Çölü bəzək, içi təzək" ata sözü tam olaraq bu rejim haqda deyilmişdir. Belə oyunbazlıqlardan, saxta fəaliyyətdən biri də alternativ enerji siyasətindədir.**

Hakimiyyət nümayəndələri hər zaman xüsusi vurğulayırlar ki, guya bizim iqtisadiyyatın, o cümlədən energetika sektorunun neftdən asılı olması müvəqqətidir, biz alternativ, bərpa edilən enerji mənbələrinin inkişafı uğrunda çalışırıq və sairə. Abşeronun küləyi, çöllərimizin Günəşi elektrik istehsalı üçün böyük imkanlar açır. Zibil emalından da enerji alırıq. Təzəkdən yalan olmasın, adaptor qayıracağıq. Nə bilim, bağ belə, bostan belə...

İnsafən, Bakı ətrafında bir neçə yerdə alternativ enerji qurğuları düzəldiblər. Bunları görməmək mümkün də deyil, sanki qəsdən, fors üçün yol qırağında quraşdırılan külək pərləri və Günəş panelləri vardır. Bakıdan şimal istiqamətinə gedən yolların qırağında. Ancaq nə məsələdirsə bu "yel dəyirmanları" adətən fırlanmırlar. Bu yay mən onlardan birinin asta-asta fırlandığını görüb çox sevinmişdim, Beşbarmaq pirinə çatanda nəzir vermişdim.

Qobustan rayonunda quraşdırılan Günəş enerjisi panellərinə isə hətta Bakıdan məktəbliləri ekskursiyaya aparırlar. Guya bu, qədim bir abidə-zaddır, misal üçün, Şirvanşah İbrahimin ət qızartdığı ocaqdır.

Uzun sözün qısası, mən həmişə fikirləşirdim ki, görəsən bu panel-manel yığını, yelqovanlar nə işə yarayır, real bir xeyri varmı, yoxsa elə bunlar da Binəqədi rayon icra hakimi Xaləddin müəllimin düzəltdiyi süni Comolunqma dağı kimi bir şeydir, göstərmədir. Tərslikdən həmin mənbələrin illik enerji istehsalı rəqəmləri də açıqlanmırdı, sanki N saylı hərbi hissənin neçə əsgərinin Çaylı kəndində vurulması haqda məlumat idi. Nəhayət bu il Dövlət Statistika Komitəsi alternativ və bərpa olunan enerji istehsalının 2013-cü ildəki vəziyyətini açıqlayıb. Caspianbarrel.org saytı bu məlumatı çox yaxşı şəkildə analiz edib, ortaya çıxan mənzərə yumşaq desək, faciəvidir.

Keçən il külək stansiyalarında 800 min kilovatt-saat elektrik enerjisi istehsal olunubmuş. Elə bu qədər enerji də Günəş panellərindən alınıb. 134 milyon kilovatt isə zibil zavodundan gəlib. 2013-cü ildə Azərbaycanın cəmi elektrik enerjisi istehsalının 23,3 milyard kilovatt-saat olduğunu nəzərə alanda, alternativ enerjinin ölkənin ümumi enerji balansında payı... 0,007 faiz imiş!

Sayt yazır ki, Alternativ və Bərpa olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin yaradılmasından 5 il keçir, bu illər ərzində hökumətin açıqladığı rəqəmlərə görə alternativ enerjiyə qoyulan dövlət sərmayəsi 400 milyon manata yaxın olub!

Ancaq gördüyümüz kimi, yarım milyarda yaxın pul sıfır tam mində yeddi faiz enerji veribmiş. Sayt ironik bir sual qoyur: "Maraqlıdır, alternativ enerjinin ölkənin ümumi enerji balansında payının 1%-ə çıxması üçün nə qədər vəsaitin xərclənməsi gərək olacaq və zaman keçəcək?".

Yaxşı sualdır. Ancaq başqa bir sual bizi həmin 400 milyon manatın israfına yönəldir. Doğrudanmı həmin fırlanğıc və güzgülərə bu qədər pul xərclənib? 400 milyon "ətə" verilibsə, ət hanı, pişiyə verilibsə pişik niyə gizlənir? Belə çıxır ki, hakimiyyət mənsubları dövlət büdcəsindən bu "enerji sirki" üçün ayrılan pulları da basıb yeyiblər, camaata isə həmişəki kimi şirniquş və popkorn qalmışdır.

**Sormağa davam. Hər iki tərəf üçün. Mən yuxarıda azca yazdım, hesab edirəm ki, təzək materialı üzərində mobil telefon akkumulyatorlarının istehsalına 200-300 milyon ayırıb yemək planı pis deyil. Məktəbliləri inəklərə baxmağa aparmaqla həmçinin onlarda təbiət sevgisi aşılanar.**

# Qərbin Azərbaycandan istədiyini verib Qarabağı alaqmı?

## NATO, ABŞ Gürcüstanın ərazi bütövlüyünün bərpası yönündə sözdən işə keçdi; Rusiyanı Abxaziya və Cənubi Osetiyadan təcili çıxmağa çağıran Amerika Ermənistanı da işğalçı kimi barmaqla göstərə bilər, əgər...

**Gürcüstan artıq NATO-nun düz qapısının ağzındadır. Qapı da ki - açıq. Sadəcə, bir dəvətə bənddir ki, qonşu ölkə dünyanın ən iri hərbi-siyasi alyansının, istənilən ölkənin təhlükəsizliyə ən etibarlı təminat verən bir ailənin 29-cu üzvü olsun. NATO-nun Uels sammiti isə göstərdi ki, belə bir dəvətin edilməsinə əslində uzun zaman da qalmayıb. Tiflis yolun yarıdan çoxunu keçib və indi bəhrəsini hiss eləməkdədir.**

Artıq bəllidir ki, Gürcüstan son sammitdə alyansın ən yüksək səviyyəli tərəfdaşı statusu alıb, üstəlik, bu ölkədə Şimali Atlantika blokunun təlim mərkəzinin yaradılması nəzərdə tutulur. Bu, o deməkdir ki, rəsmi Tiflis bundan sonra öz ordusunu və hərbi-texniki parkını qabaqcıl Qərb texnologiyası və təcrübəsi əsasında daha ürəklə, qorxu-hürküsüz komplektləşdirə biləcək.

Bu da hamısı deyil. Uels zirvəsi başa çatar-çatmaz ABŞ-ın müdafiə naziri Cak Heygel Gürcüstana, - məhz Gürcüstana, qonşu Azərbaycana yox, - iki günlük səfər edərək gənc gürcü dövlətinin Amerikanın təhlükəsizlik çətiri altında olduğu barədə dünyaya, ilk növbədə də Moskvaya aydın mesajlar verib.

Pentaqon başçısı daha da qabağa gedərək ABŞ adından Rusiyanı Gürcüstanın işğal altındakı ərazilərindən öz qoşunlarını bütünlüklə çıxarmağa çağırıb. "Hazırda Ukraynanın şərqində müşahidə elədiyimiz kampaniya, həmçinin, Gürcüstanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Rusiyanın hərəkətləri regional təhlükəsizliyə böyük təhlükədir", - deyə Heygel əlavə edib və faktiki, Ağ Evin Kremli həm də hərbi rəqib qismində gördüyünü anons edib.

Belə bir mesajın Vaşinqtondan yox, Rusiyanın "qulağının dibindən" səslənməsi ikiqat əhəmiyyət daşıyır. Görünür, ABŞ 2008-ci ildə Abxaziya və Cənubi Osetiyanın Rusiya tərəfdən birtərəfli qaydada tanınmasına gətirən "5 günlük müharibə"nin nəticələrini Kremlə bağışlamaq niyyətində deyil. Onu da xatırladaq ki, ötən ay ABŞ Senatında qəbul edilən qanuna görə, Gürcüstan Birləşmiş Ştatların NATO-dan kənar "hərbi müttəfiqi" statusu qazanıb.

Sadalananlar Qərbin, ələlxüsus da ABŞ və NATO-nun Gürcüstanın ərazi bütövlüyü və suverenliyi məsələsində sözdən işə keçdiyinə şübhə saxlamır. Doğrudur, NATO-nu yekun bəyannamələrində Azərbaycanın da ərazi bütövlüyü dəstəklənir. Ancaq son sənəddə bir qarış torpağı belə işğal edilməyən Ermənistanın adı da eyni sırada çəkilib.



Üstəlik, Qərb, NATO, ABŞ Rusiyanı açıq şəkildə təcavüzkar elan eləsə də, nədənsə Ermənistan barəsində analoji sərt ifadələr işlətmir, sonuncunun işğalçı siyasətini görməzlikdən gəlir. Biz hələ indiyədək bir dəfə də olsun eşitməmişik ki, Qərbin yüksək çinli siyasiləri və hərbi rəsmilərindən kimsə "Ermənistan ordusu öz qoşunlarını Azərbaycanın işğal edilmiş ərazilərindən, Qarabağdan bütünlüklə çıxarmalıdır" bəyanatını versin - o ki ola Pentaqon başçısı.

Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olması haqda bəyanatlar da son illər çox xəsisliklə, ürkək şəkildə və olduqca ütülənmiş və ikibaşlı ifadələrlə kamifulyaj edilərək verilir. Ərazi bütövlüyü dilə gətirilən kimi isə dərhal böyrünə "öz müqəddəratını təyinetmə hüququ" qoşulur. Halbuki nə Abxaziya və Cənubi Osetiya, nə də ki, Dnestryanı bölgə və Krım məsələsində belə yanaşmanı müşahidə eləmirik. Görəsən niyə?

Fikrimizcə, sualın cavabını sırf Qərbin ikili standart siyasətində, yaxud xristian amilində axtarmaq insafsızlıq olar. Belə yanaşma şəkk-şübhəsiz, ən əvvəl Azərbaycanın öz strateji seçiminin illərdir yubatması ilə bilavasitə bağlıdır. Gürcüstan bu xüsusda artıq çəkdiyi cəfasının səfasını görməyə başlayıb. Hətta bəzi ehtimallara görə, o, NATO üzvü olmaqla qardaş Türkiyənin alyans üçün önəmi azala bilər.

Əgər hətta belədirsə, Azərbaycan ikiqat tələsmək zorundadır. Demirik ki, günü sabah alyansa ərizə verək. Ancaq Avropa Birliyi ilə ən azından Gürcüstan qədər yaxınlaşmaq imkanlarımız var idi və var. Gürcüstanın itirdiyi ərazi bizimkindən az deyil ki. Lakin bu, ona Qərbə inteqrasiya üçün ciddi addımlar atmağa, ölkədə köklü demokratik islahatlar və azad seçkilər keçirməyə mane olmadı. Daha hansı nümunə, örnək istəyirik?..

***

**Qərbin bizdən yek istəyi, zatən bəlli. Onu verib Dağlıq Qarabağı bir güllə atmadan da qaytara bilərik. Bəlkə bir az gec olar, ancaq enində-sonunda mütləq olar. Ən azı qabaqda Gürcüstan (nümunəsi) var. Gürcülərin peşini buraxmayaq. Onsuz da dünya savaşa yaxşı baxmır. Elə Qərb də. O qərb ki, hələ uzun müddət dünyada həlledici söz sahibi olacaq.**

❑ Siyasət şöbəsi

# İqtidara sanksiya tətbiq edilə bilərmi?

## Mehman Əliyev: "İqtidar Amerikanın irad və təkliflərini nəzərə alır"

**ABŞ-da yerləşən "Freedom House" beynəlxalq insan haqları təşkilatının rəhbəri David Kramer Azərbaycanda yaranmış vəziyyətlə bağlı ötən həftə "Amerikanın səsi" radiosuna müsahibə verib. Kramer Azərbaycanda insan haqları sahəsində iyrənc situasiya yaşandığını deyib və Azərbaycan hökumətinə qarşı sanksiyaların tətbiqinə çağırıb. Ziyalılar Forumunun üzvü, məşhur kinorejissor Rüstəm İbrahimbəyov moderator.az-a açıqlamasında rəsmi Bakının Qərbin sanksiyaları ilə üzləşəcəyi ilə bağlı fikirlər səsləndirib:**

"Hesab edirəm ki, hakimiyyətin yürütdüyü siyasət gec-tez Qərbin Azərbaycana qarşı sanksiya tətbiqini zəruri edəcək. Yaxın gələcəkdə hakimiyyət öz siyasətini dəyişdirməsə, etirazlara müsbət reaksiya göstərməsə, vəziyyət çox gərginləşəcək. Ola bilsin ki, bu, sanksiyalarla müşahidə olunsun".

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyevin** sözlərinə görə, NATO-nun son sammiti onu göstərdi ki, Azərbaycan hakimiyyəti Amerika hökumətini kifayət qədər hörmət olunan tərəf kimi qəbul edir: "Ona görə də iqtidar Amerikanın irad və təkliflərini nəzərə alır. Odur ki, məncə, bu, sanksiyalara gəlib çıxmayacaq. İş ondadır ki, Azərbaycan hökuməti ilə Amerika tərəfi kifayət qədər sıx əməkdaşlıq edir. Qlobal təhlükəsizlik, enerji təhlükəsizliyi, terrorizmə və sairə qarşı mübarizə məsələlərində Azərbaycan hakimiyyəti onlarla yaxından əməkdaşlıq edir". M.Əliyev demokratiya, insan haqları sahəsində problemlər var və Azərbaycan tərəfi bu problemlərin həll olunmasından imtina etmir: "Sadəcə olaraq Amerika tərəfi daha qəti şəkildə narahatlığını bildirsəydi, əlbəttə ki, vəziyyət başqa olardı. Hələ ki mən Amerika tərəfindən bu mövqeyi görmürəm. Deməli, yuxarıda qeyd etdiyimiz məsələlər prioritetdir, digər məsələlərə də yaxın zamanlarda diqqət yetiriləcək".



Mehman Əliyev

**ADP sədri Sərdar Cəlaloğlu** moderator.az-a açıqlamasında Qərbin Azərbaycana qarşı sanksiya tətbiqinə inanmadığını vurğulayıb: "İnsan haqlarına görə dünyada sanksiya tətbiq olunmur. Hər halda belə bir təcrübə yoxdur. Sanksiyaların tətbiqi beynəlxalq normalarla müəyyənləşir. Bu da yalnız işğal, təcavüz və s. hallarda reallaşır. Hətta kütləvi insan hüquqlarının pozulmasına görə də sanksiya tətbiq olunmur. Bu baxımdan Qərbin Azərbaycana sanksiya tətbiq edəcəyinə inanmıram".

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 225 (5934) 9 sentyabr 2014

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Amerikadan Qarabağa dair böyük sülh sazişi təklifi

## Elmar Məmmədyarov Kerrinin vasitəçiliyi ilə baş tutan görüşün əsl mahiyyətini aşıqladı; Gələn ay sənədin hazırlanması prosesinə start veriləcək

**NATO-nun Uels Sammitindən Azərbaycanın də öz gözləntiləri var idi. Hələ Alyansın tədbiri ərəfəsində hesab olunurdu ki, Qarabağ məsələsinə münasibət baxımından sammit Azərbaycan üçün həyati əhəmiyyət kəsb edir. Bu yanaşmanın müəllifləri Rusiya-Ukrayna münaqişəsinin əsas müzakirə mövzusu olacağını əsas gətirib ərazi bütövlüyü prinsipinin əsas amil kimi önə çəkiləcəyi təqdirdə Azərbaycan üçün də uduşlu situasiyanın yarana biləcəyini qeyd edirdilər. Bu mənada gözləntilər özünü doğrultdu.**

Xəbər verildiyi kimi, NATO Sammitinin Yekun Bəyannaməsi Azərbaycan, Gürcüstan, Moldova, Ermənistan və Ukraynanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini müdafiə edib. Bəyannamənin 31-ci bəndində deyilir ki, Qafqazda, habelə Moldova Respublikasında münaqişələrin dinc yolla həlli beynəlxalq hüquq prinsiplərinə, BMT Nizamnaməsinin və 1975-ci ildə qəbul olunmuş Helsinki Yekun Aktının prinsiplərinə əsaslanmalıdır. Bəyannamədə millətlərin öz müqəddəratını təyin etməsi hüququ haqqında bir kəlmə də yoxdur. Bu mənada hesab olunur ki, Uelsdə Ermənistan prezidenti Serj Sərkisyan növbəti şapalaq alıb. Düzdür, erməni prezident işğal siyasətini ört-basdır etmək üçün xeyli cəhd göstərdi, ancaq müşahidəçilər hesab edir ki, faktiki olaraq onun cəhdləri iflasa uğrayıb. Odur ki, Sərkisyanın Uelsdən dönəndən sonra ölkəsində toplantı keçirərək müzakirələr açması da sammitdəki uğursuzluğun Ermənistanda yarada biləcəyi narazılıqları önləmək istəyi kimi yozulur. Erməni prezident NATO sammitinə Rusiyanın boyunduruğunda gedən, yenicə Gömrük İttifaqına "vəsiqə qazanan" bir ölkə kimi getmişdi və bu, Qərbin diqqətindən yayına bilməzdi.

### İlham Əliyev: "Münaqişə beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü əsasında həll edilməlidir"

Alyansın toplantısında çıxış edən Azərbaycan prezidenti İlham Əliyevin erməni işğalı ilə bağlı həqiqətləri bir daha dilə gətirməsi də ölkəmizin mövqelərinin möhkəmləndirilməsi baxımından faydalı sayılır. İ.Əliyev sammitdəki çıxışında deyib ki, Azərbaycanla NATO arasında tərəfdaşlığın 20 ili ərzində ölkəmiz Alyansın bir çox fəaliyyət sahəsinə töhfə verən etibarlı tərəfdaşa çevrilib. Ölkə başçısı qeyd edib ki, Azərbaycan regional təhlükəsizlik və sabitlikdə mühüm rol oynayır: "Bununla belə, bu gün regionumuzdakı təhlükəsizliyə ən böyük hədə Azərbaycan ərazisinin iyirmi faizini təşkil edən Dağlıq Qarabağ və yeddi ətraf rayonu işğal altında saxlayan Ermənistanın işğalçılıq siyasətidir. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirib və bunun nəticəsində 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Əfsuslar olsun ki, Ermənistan onlara məhəl qoymamaqda davam edir və münaqişə həll olunmamış qalır. Münaqişə beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü əsasında həll edilməlidir. Biz NATO-nun bu məsələ ilə bağlı mövqeyini və əvvəlki sammitlərdə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə verdiyi tam dəstəyi yüksək dəyərləndiririk. Biz qətiyyətlə inanırıq ki, NATO-nun beynəlxalq hüququn bu cür mühüm hissəsinə sadiqliyi bundan sonra da davam edəcək. Beləliklə, o, ədaləti bərpa etməyə və beynəlxalq səviyyədə tanınmış sərhədləri güc hesabına dəyişmək kimi səhv düşüncədən yayındırmağa birmənalı şəkildə yardım edir". İ.Əliyev xatırladıb ki, Azərbaycan Əfqanıstana uzunmüddətli inkişafın təmin edilməsi üçün hərtərəfli töhfə verir və bu sammitin bütün üç sahəsinə töhfə verən NATO-nun 5 tərəfdaşından biridir.

**Ekspertlər də NATO sammitini Azərbaycan üçün uğurlu hesab edir. Ancaq Alyansdan bundan artığını gözləməyin mümkünsüzlüyü də dilə gətirilir.**

Politoloq Rasim Musabəyov deyir ki, bu qurumdan Qarabağın azadlığını gözləməklə özümüzü aldatmağa ehtiyac yoxdur: "O sammitdə əsas məsəllə Qarabağ yox, Ukraynaya müdaxilə, Rusiyanın davranışları, eyni zamanda İŞİD təhlükəsi idi. Ermənistan NATO üzvü deyil və orda ABŞ, Türkiyə kimi aparıcı dövlətlər var. Sərkisyan isə ora cummuşdu ki, Kerri ilə birgə Qarabağ məsələsini birdəfəlik kənara atsınlar, ancaq bu da baş tutmadı. Bütün cəhdlərə baxmayaraq Azərbaycanı müzakirələrdən kənarda qoymaq mümkün olmadı. Nə qədər çalışsalar da ki, Qarabağla bağlı müzakirələrdə münaqişənin sülh yolu, ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyinetmə prinsipləri ilə həll olunması məsələsi əksini tapsın, bu, mümkün olmadı. Yəni ümumi şəkildə sülh yolu ilə və Helsinki Yekun Aktının prinsipləri çərçivəsində həll olunma barədə deyildi. Sammit iştirakçıları tərəfindən işğala məruz qalanların ərazi bütövlüyünə dəstək də ifadə edildi. Erməniləri təkləməmək, daha dəqiqi Ermənistanı ürkütməmək üçün onların da adını ora saldılar. Kerri kifayət qədər ermənipərəst şəxs olsa da, Sərkisyan gördü ki, indiki vəziyyətdə ermənilərə dəstək əldə etmək qeyri-mümkündür".

**Qeyd edək ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan vəd verdiyi kimi, Uelsdə NATO-nun sammitində çıxışında Qarabağdan danışıb.** O, Alyansın Azərbaycanla bağlı vədlərinin yerinə yetirilməli olduğunu bildirərək "Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması böyük əhəmiyyət daşıyır" deyib. Düzdür, Türkiyə prezidentinin amerikalı həmkarı Barak Obama ilə təkbətək görüşündə işğal olunmuş Azərbaycan əraziləri məsələsinin polemika mövzusu olduğu barədə açıqlama verilməyib. Bildirildiyinə görə, bu görüş zamanı daha çox Suriya və İraqda regional təhlükəsizlik və sabitliyi təhdid edən mühitə qarşı konkret addımlar atılması zərurəti, Fətullah Güənin qaytarılması və İŞİD məsələsi müzakirə mövzusu olub. Lakin bir sıra müşahidəçilər hesab edir ki, NATO sammiti çərçivəsində ərazi bütövlüyü məsələsinə önəm verməsindən əlavə, İŞİD-ə qarşı mübarizənin zəruriliyi barədə vahid mövqenin sərgilənməsi terror təhlükəsindən sığortalanmayan Azərbaycan üçün də önəmli məsələdir.



## NATO sammitinin yekunları barədə ekspertlər nə düşünür?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** hesab edir ki, ümumilikdə NATO-nun Uelsdəki sammitinin nəticələri Azərbaycanın xeyrinə oldu: "Birincisi, həmişə olduğu kimi bu dəfə də NATO qəbul etdiyi sənəddə digər ölkələr kimi Azərbaycanın da ərazi bütövlüyünü təsdiqlədi. İkincisi, Ermənistan prezidenti Serj Sərkisyan da eyni sənədə səs verdi. Bu da ondan irəli gəlirdi ki, həmin sənəddə Azərbaycanla yanaşı, Gürcüstan, Ukrayna, Moldova və Ermənistanın da ərazi bütövlüyünün vacibliyi vurğulanırdı. Yəni Sərkisyan yerindən qalxıb deyə bilməzdi ki, yox, mən Azərbaycanın ərazi bütövlüyünü əsas götürən sənədə səs vermirəm. Adama deyərdilər ki, onda məntiqlə sən Ermənistanın da ərazi bütövlüyünə səs vermirsən. Odur ki, biz mötəbər beynəlxalq tədbirdə Ermənistan prezidentini Azərbaycanın ərazi bütövlüyünə səs verməyə vadar etdik. Təsadüfi deyil ki, Serj Sərkisyan Ermənistana qayıdan kimi dərhal partiyasını toplayaraq İrəvanın NATO və AŞPA kimi təşkilatlarda Bakıya məğlub olduğunu etiraf etdi. Başqa necə ola bilər ki?" E.Şahinoğluna görə, baxmayaraq ki, Azərbaycan Gürcüstan və Ukraynadan fərqli olaraq NATO-ya üzv olmaq hədəfini qarşısına məqsəd qoymayıb, ancaq Şimali Atlantika blokunun sülhməramlı əməliyyatlarında iştirak edirik, Azərbaycan ordusunda NATO standartlarına uyğun islahatlara üstünlük veririk: "NATO-nun Uels sammitində daha bir üstünlüyümüz Qarabağ məsələsində Bakının Ankara ilə birgə çıxış etməsi oldu. Ərdoğan Bakıda verdiyi vədi yerinə yetirdi, bütün ikitərəfli görüşlərdə Qərb liderlərinə Qarabağ probleminin həlli vacibliyini xatırlatdı. Bunun iki baxımdan əhəmiyyəti var idi. Birincisi, Qərb liderləri bir daha anlamlıydılar ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmadan Türkiyə-Ermənistan münasibətlərinin normallaşması mümkün deyil. İkincisi, Qərbin arzuladığı Ermənistanın Rusiyanın caynağından qoparılmasının yolu da Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllindən keçir. Məncə, həm Azərbaycan, həm də Türkiyə prezidentləri bu mesajı Qərb liderlərinin diqqətinə çatdıra bildilər. Uesl sammitində bir başqa hadisə ABŞ dövlət katibi Con Kerrinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü idi. Bu Vaşinqtonun sanki Moskvaya mesajı idi ki, artıq Rusiyanın təkbaşına vasitəçilik missiyasına seyrçi qalmayacaqlar. Ancaq bu azdır. Gərək Vaşinqton Ermənistana təsir imkanlarını da hərəkətə gətirsin. Çünki, nə qədər Ermənistan Rusiyanın hərbi müttəfiqi olsa da, maliyyənin önəmli hissəsini ABŞ-dan alır. Deməк, Vaşinqtonun İrəvana təsir etməsi üçün əlində ciddi aləti var. Amerikalı diplomatların son aylarda səsləndirdikləri "Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmalıdır" açıqlamaları bizim xeyrimizədir. Deməli, amerikalılar da anlayır ki, Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmadan, yeni mərhələli həll planı işə düşmədən bölgədə sülh əldə edilməsi mümkün olmayacaq. Buna baxmayaraq, realistəm və təəssüf ki, Barak Obama hökumətinin Qarabağ münaqişəsinin həllinə baş vuracağını ehtimal etmirəm. Bütün hallarda Vaşinqtonun fəallaşması və Rusiyanın inhisarına son qoyması cəhdi bizim ziyanımıza deyil. Bütün bu deyilənləri nəzərə alaraq bir daha NATO sammitinin Azərbaycanın maraqlarına uyğun keçdiyi fikrindəyəm. Ancaq qəbul olunan sənədin və keçirilən ikitərəfli görüşlərin də Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini sürətləndirəcəyi fikrindən də uzağam. Hər halda Azərbaycanın ərazi bütövlüyünü vurğulayan sənəd nə qədər çox olsa, bir o qədər xeyrimizədir. Bir gün bölgədə durum dəyişər və həmin sənədlər işə yarayar".

"Serj Sərkisyan hazırda öz ölkəsində ciddi tənqid edilir".

**Bunu isə deputat, YAP Siyasi Şurasının üzvü Aydın Mirzəzadə** feysbuk səhifəsində yazıb. Deputat qeyd edib ki, Sərkisyan pis vəziyyətə düşüb: "Ermənistan prezidenti Serj Sərkisyan növbəti dəfə xoşagəlməz situasiyaya düşüb. O özü də istəmədən Azərbaycanın ərazi bütövlüyü sənədinə imza atıb. Belə ki, NATO-nin bu günlərdə Nyuport (Böyük Birtaniya, Uels) şəhərində keçirilən sammitinin qəbul etdiyi və Ermənistan prezidentinin də imza atdığı bəyanatda 30-cu bənd var. Bənddə deyilir: "Ukraynadakı son hadisələr NATO-nun Şərqi Avropadakı bəzi partnyorları arasında narahatçılıq yaradıb. Müttəfiqlər partnyorlarının xarici siyasət və təhlükəsizlik - xarici təzyiq və məcbur etmədən azad müstəqil seçimlərini müdafiə etməkdə davam edəcəklər. NATO hüquqların müdafiəsi öhdəliyini saxlayır və əvvəlki kimi Ermənistan, Azərbaycan, Gürcüstan və Moldovanın ərazi bütövlüyü, müstəqillik və suverenliyini müdafiə etmək əzmindədir". Bəyannaməni NATO sammitində iştirak edən Ermənistan prezidenti Serj Sərkisyan da imzalayıb və buna görə hal-hazırda öz ölkəsində ciddi tənqid edilir".

### Məmmədyarovdan ilginc açıqlama

Bu arada Uelsdə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü barədə ilginc açıqlama yayılıb. "NATO sammiti çərçivəsində Uelsdə prezidentlər səviyyəsində keçirilən görüşdə ABŞ dövlət katibi Con Kerri Dağlıq Qarabağ münaqişəsinin həlli üçün ölkəsinin hansı istiqamətdə iş aparmalı olduğunu öyrənmək istəyirdi". Bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov XİN- keçirdiyi mətbuat konfransında deyib. Nazir qeyd edib ki, görüşdə böyük sülh sazişinin layihəsi üzrə işin başlanmasının vaxtının çatdığı bildirilib: "Azərbaycanın mövqeyi belədir ki, görüş xətrinə görüş olmamalı və konkret məsələlər müzakirəyə çıxarılmalıdır. Ən böyük problem Ermənistan qoşunlarının Azərbaycan ərazilərində mövcudluğudur. Onlar işğal etdikləri ərazilərdən çıxmalıdırlar. Onların işğal edilmiş ərazilərdə qalması təhlükəlidir və Azərbaycan bununla heç vaxt razılaşmayacaq". (APA) E.Məmmədyarovun sözlərinə görə, ABŞ konkret təklif edib ki, böyük sülh sazişi üzərində iş aparılsın: "Güman ki, bu ay ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlik regiona səfər edəcək və Nyu-Yorkda BMT Baş Assambleyası çərçivəsində xarici işlər nazirləri səviyyəsində görüş keçiriləcək".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 225 (5934) 9 sentyabr 2014



# Bir münaqişəni həll etməmiş...

**Hüseynbala SƏLİMOV**

**Bəlkə də daha bir üzücü prosesə start verildi. Bir neçə gün bundan əvvəl, sentyabrın 5-də Minskdə Ukraynadakı münaqişəni tənzimləmək məqsədilə ilk təşəbbüs baş tutdu.**

ATƏT-in çətiri altında start götürən bu təşəbbüs siyasi təhlilçilərin sayəsində elə dərhal da Minsk prosesi adını aldı. Qəribəsi budur ki, elə ilk günlərdən proses müəyyən şübhələrlə müşayiət olundu, atəşkəs haqqındakı razılaşmanın davamlı olacağına ümidlər bir o qədər də böyük olmadı.

Desək ki, bu, bizə elə də qəribə görünmədi, çox da böyük təhrifə yol vermərik. Məsələ bundadır ki, Qarabağ münaqişəsi də artıq 22 ildir ki, ATƏT-in Minsk Qrupu vasitəsilə tənzimlənir.

Düzdür, bu illər ərzində nisbi də olsa atəşkəs rejimi bərqərar olub, amma razılaşma o qədər kövrəkdir ki, onun daim pozulması və irimiqyaslı hərbi əməliyyatlara çevrilməsi qorxusu həmişə var. Elə bu yaxınlarda atəşkəs rejimi elə pozuldu ki, hamı müharibənin növbəti mərhələsinin başlanacağını güman etdi.

Elə bu səbəbdən Ukrayna münaqişəsinin tənzimləməsilə bağlı ümidlərimiz bir o qədər də böyük deyil. Bu illər ərzində ATƏT özünü çevik mexanizm kimi göstərə bilmədi. Ümumi halda götürdükdə isə, elə digər beynəlxalq institutların da sülh yaratma potensialı bir o qədər böyük deyil. Təsəvvür edin, ATƏT bir tərəfə, BMT-nin Baş katibi Azərbaycan və Ermənistanı hərbi əməliyyatları dayandırmağa çağırır, amma Baş katib özünün başçılıq etdiyi və dünyada ən nüfuzlu təşkilat hesab edilən BMT-nin dörd qətnaməsini xatırlatmaq üçün özünə əziyyət vermir. Sonra da deyirlər ki, Ermənistan BMT tərəfindən qəbul edilən dörd qətnaməyə məhəl qoymur, halbuki BMT liderləri özləri həmin qətnamələri yada salmırlar.

Hələ bu azmış kimi, ATƏT-in Minsk qrupunun həmsədrləri olan dövlətlər başqa vaxt Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini desələr də, BMT çərçivəsində keçirilən səsvermələrdə bunu təsdiq etmirlər...

Ona görə də Ukraynaya "Qəzan mübarək!" deməkdən savayı çarəmiz qalmır.

Əgər NATO ölkələri Ukraynadakı proseslərə ciddi yanaşmasa, necə deyrələr, bu xəmir hələ çox su aparacaq. Rusiyanın da minimum planı elə budur.

Kırmı ilhaq etməklə Rusiya özünün Qara dənizə çıxışını təmin etdi. Ukraynanın cənub-şərqindəki proseslərə gəldikdə isə onların missiyası bir qədər başqadır- bu münaqişə Rusiyaya Ukraynanı öz orbitində saxlamaq üçün lazımdır.

Düz 22 ildir ki, Rusiya diplomatları deyir ki, Qarabağ probleminin açarı onların ölkəsindədir. Bu illər ərzində Rusiyaya dəfələrlə kart-blanş verildi və Rusiyanın Minsk Qrupunda həmsədrliyi təmin edildi. Amma nə faydası?

İndi ATƏT-in ilk tövsiyyələrində şərq bölgələrinin özünüidarəetmə potensialının artırılması tövsiyyə olunur. Amma bu, bütün münaqişələrin ən qəliz tərəfidir. Ona görə ki, hələ məlum deyil, separatistlər hansı özünüidarəetmə formasını istəyirlər? Rusiya KİV-ləri onları "federallaşma" tərəfdarları adlandırır. Amma bu qüvvələr federasiya ilə kifayətlənəcəkmi? O ki qaldı federalizmə, prinsip etibarilə o, elə də qorxulu deyil. Dünyanın ən böyük dövlətləri, o cümlədən də ABŞ federal dövlətdir. Amma indi aydın olan budur ki, Rusiya federallaşma adı altında Ukraynanın özülünə uzunmüddətli mina qoymağa hazırlaşır.

Bəs nə etməli? Ukrayna bütün vətəndaşları üçün ölkəni maraqlı etməlidir. Bəli, ölkə öz vətəndaşları üçün maraqlı olmalıdır, insanlar bu ölkədə yaşamaqda maraqlı olmalıdır. Baltikyanı ölkələri yada salın. Açığı, bu ölkələr rus əhalisi üçün müəyyən məhdudiyyətlər nəzərdə tutub. Amma buna baxmayaraq ruslar həmin ölkələri tərk etmirlər və orada yaşamağa üstünlük verirlər.

İndi Ukrayna əhalisinin bir qismi üçün Rusiya daha cəlbedici görünür. Düzdür, münaqişənin başlanmasında və gedişində Rusiyanın bilavasitə öz rolu da var. Amma ölkə də insanlar üçün maraqlı olmalıdır.

Təəssüf ki, bu detalı neçə illərdir ki, Azərbaycanda da nəzərə almırlar. Neçə illərdir deyilir ki, Qarabağ probleminin həlli həm də Azərbaycanın demokratikləşməsindən keçir. Amma kimə deyirsən? Bəziləri elə güman edir ki, hətta nəzəri cəhətdən neft ölkəsi olmaq hamı üçün cəlbedicidir. Heç düşünmürlər ki, neft ölkəsi olmaq nədəsə özünün ifadəsini tapmalıdır. Bu gün isə neft amili özünü yalnız oliqarx məmurların sərvətində büruzə verir...

**Amma neft ölkəsində ən azı neft məhsulları ucuz olmalıdır! Düşünürük ki, bu elə bir həqiqətdir ki, onunla hamı razılaşar...**



# "Türkiyə İŞİD-ə qarşı koalisiyaya qoşulmayacaq"

## Orxan Qafarlı: "40-a yaxın türk diplomatı hələ də İŞİD-in əlində girov saxlanılır"

**NATO-nun Uels sammitində bir araya gələn ABŞ və Türkiyə prezidentlərinin danışıqlarının detalları açıqlanıb. Ərdoğanla Obama arasında görüş 90 dəqiqə davam edib və iki tərəf arasında qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.**

Nə Ağ Ev, nə də rəsmi Ankara görüş haqqında mediaya operativ açıqlama verməsələr də, təkbətək görüşdə İŞİD məsələsindən, Suriyada və İraqdakı duruma, İsrail-Fələstin savaşına qədər bir çox məsələlər haqqında fikir mübadiləsi edildiyi bildirilir. Türkiyə prezidenti bildirib ki, saat yarım sürən görüşmədə ABŞ-Türkiyə münasibətlər modeli ilə bağlı qısa, Ukrayna, Suriya, İraq, Liviya, Misir, Fələstin məsələləri ilə bağlı detallı müzakirə aparıblar.

Eyni zamanda o, Türkiyədə paralel dövlət yaradılması cəhdləri haqqında uzun müzakirələrin aparıldığını qeyd edib. Ərdoğan deyib ki, Obama ondan Fətullah Gülən camaatı ilə bağlı ətraflı məlumatlar istəyib. Ancaq eyni zamanda müzakirələrdə əsas mövzulardan birinin Türkiyənin sərhədləri yaxınlığında baş qaldıran İŞİD təhlükəsi və ona qarşı birgə mübarizə barədə olduğu bildirilir. Çünki Obama bəyan edib ki, İŞİD-ə qarşı 12 dövlətin birləşdiyi yeni koalisiya yaradılacaq. Heç şübhəsiz ki, ABŞ hökuməti NATO-nun üzvü olan və bölgədə yerləşən Türkiyənin bu koalisiyaya qatılmasını istəyir. Türkiyənin bu istəyə hansı cavabı verdiyi bəlli deyil. Ərdoğan özü də etiraf edib ki, Qərb ölkələri Türkiyənin bu koalisiyada olmasını istəyirlər, ancaq hökumət hələlik koalisiyaya qoşulmaqla bağlı yekun qərarını verməyib.

**Ankara Universitetinin doktorantı Orxan Qafarlı** deyir ki, müzakirələrdə əsas mövzular Türkiyənin daxili siyasi məsələsi olan "paralel yapılanma" və xarici siyasət məsələlərindən Suriya və İraqda formalaşmış İŞİD terror təşkilatına qarşı birgə fəaliyyəti formaları olub: "Eyni zamanda, Türkiyənin Yaxın Şərq siyasəti, xüsusilə Şimali İraqda kürd muxtar vilayəti ilə münasibətlər müzakirə mövzusu olmuşdur. Ukrayna məsələsinin də Türkiyə ABŞ münasibətlərində önəmli müzakirə mövzusu olub. Vaşinqton, Ankara ilə Moskva arasında formalaşan isti münasibətlərinə yaxşı baxmadığı məlumdur. Xüsusilə, Krım məsələsində Rusiya qarşı kəskin münasibətin olmasını gözləyir. Türkiyənin də Rusiya qarşı sanksiyalara qoşulmağa dəvət edirlər".



O.Qafarlı deyir ki, ABŞ üçün önəmli olan, Türkiyənin xarici siyasətinin yenidən Vaşinqtonun orbitinə geri qaytarmaqdır. Ən mühümü isə Türkiyədən öz xarici siyasətini ABŞ-ın Yaxın Şərq siyasətinə uyğunlaşdırmaqdır: "İsrail ilə Türkiyə münasibətlərinin də Ərdoğan və Obama arasında müzakirə edildiyi bildirilir. Ərdoğan bir daha İsrail-Türkiyə münasibətləri ilə bağlı mövqeyini açıq şəkildə ifadə edib. Və Türkiyənin mövqeyinin Fələstin-İsrail münasibətlərindən asılı olacağını çox aydın şəkildə ifadə edib. Xüsusilə, İsrailin Qəzzaya hərbi əməliyyatlardan sonra Təl-Əvivlə Ankara arasında münasibətlərin düzəlməsindən söz edilə bilməz".

**O.Qafarlının fikrincə, görüş zamanı müzakirə olunan əsas məsələ Türkiyənin ABŞ qurduğu İŞİD-ə qarşı koalisiyada yer alması olub:** "ABŞ-ın İŞİD-ə qarşı planı olan sünni ölkələri ilə birgə koalisiya qurulması və hərbi əməliyyatlarının aparılması müzakirə olunub. Vaşinqton üçün önəmli olan Türkiyənin bu məsələyə münasibətinin necə olacağıdır. Ankara hərbi əməliyyat məsələsinə bir az həssas yanaşır. Çünki 40-a yaxın türk diplomatları hələ də İŞİD-in əlində girov saxlanılır. Əslində İŞİD-in bu diplomatları buraxmasını Türkiyə də artıq gözləmir. Bəllidir ki, bu diplomatların saxlanılma səbəbləri Türkiyənin IŞİD qarşı çıxmamasına nail olmaqdır. IŞİD anlayır ki, Türkiyə onlara qarşı çıxarsa, bu terror təşkilatının içindən belə çökməsi mümkündür. Güman edilir ki, CİA və MİT bu diplomatların sərbəst buraxılması üçün birlikdə əməliyyat apara bilər. Obama ilə Ərdoğan arasında kəşfiyyat informasiyalarının alış-verişi edilməsi məsələsi də bununla bağlıdır".

**Ekspert deyir ki, hazırkı şərtlərdə Türkiyə İŞİD-ə qarşı koalisiyaya qoşulmayacaq. Bu, yalnız girovların azad edildiyi təqdirdə ola bilər:** "Türkiyənin NATO-nun formalaşdırdığı koalisiyaya qoşulması yalnız 40 diplomatın azad edilməsindən sonra mümkün ola bilər. Türkiyənin bu diplomatları qurban verməsi mümkün deyil. İki variant mümkündür. Formalaşacaq koalisiyaya Türkiyə qoşulmayacaq və ya CİA və MİT birgə əməliyyat keçirərək diplomatları terroristlərin əlindən azad edəcəklər. Və yalnız bundan sonra Türkiyənin koalisiyaya qoşulması mümkün olacaqdır".

❑ **KƏNAN**

# Medvedyev Avropadan Bakıya uçuşları ləğv edəcəyi ilə hədələdi

## Rusiya iqtisadiyyatı şokdadır

**"Rusiya iqtisadiyyatı son illər daxili və xarici amillərin neqativ təsirini hiss edir". Bu sözləri "Vedomosti" qəzetinə müsahibəsində Rusiyanın baş naziri Dmitri Medvedyev deyib. O, Rusiyanın iqtisadi vəziyyətini şərh edərkən bildirib ki, ölkə 2008-ci ilin şokunu yaşayır. Hökumət başçısı kimi Dmitri Medvedyev onda bu qənaətin yarandığını etiraf edib: "İqtisadiyyatın inkişafı, insanların yaşayışı üçün çətin şərait var. Dövlətin rəhbərlərindən biri kimi məndə belə hiss var ki, biz 2008-ci ildəki xarici şokların vəziyyətini yaşayırıq" deyə, Medvedyev söyləyib.**



Rusiya iqtisadiyyatındakı yaranmış durğunluqlara baxmayaraq, hökumət başçısı bunun aradan qaldırılması üçün işlər getdiyini də vurğulayıb. Onun sözlərinə görə, Rusiya hakimiyyəti ölkənin inkişafına yönəlmiş iqtisadi kursu davam etdirmək niyyətindədir.

Medvedyev onu da deyib ki, əgər Rusiyaya qarşı yeni sanksiyalar tətbiq olunsa, Rusiya bu sanksiyalara cavab verməli olacaq. Cavab olaraq Rusiya hava məkanında uçuşların məhdudlaşdırılması da mümkündür.

Dmitri Medvedyev vurğulayıb ki, Rusiya artıq Asiya-Sakit okean regionunda Qərb hava yolları üçün öz hava məkanını bağlamağı nəzərdən keçirir.

"Əgər bizə məhdudiyyətlər qoysalar, biz də cavab verməli olacağıq. Qərb aviaşirkətlərinin bizim hava məkanımızdan istifadə edə bilməməsi isə onların bir çoxunun müflisləşməsinə gətirib çıxara bilər. Bu, xoşagələn hadisə deyil. İstərdik ki, bizim tərəfdaşlarımız da bunu anlasınlar" deyə, baş nazir əlavə edib.

Qeyd edək ki, Sibir üzərində uçuşlardan ən çox istifadə edən şirkətlər "Lufthansa", "British Airways" və "Air France" şirkətləridirlər və bunun sayəsində onlar hər uçuş zamanı 30 min dollaradək qənaət edirlər.

Virtualaz.org onu da xatırladır ki, bir ay əvvəl Rusiya öz hava məkanını Ukraynadan Ermənistan, Azərbaycan, Gürcüstan və Türkiyəyə uçan təyyarələr üçün bağlayıb.

Qeyd edək ki, Rusiyanın Krımı özünə birləşdirməsindən sonra Qərb dairələri rəsmi Moskvaya sanksiyalar tətbiq edib. Lakin Rusiyanın Ukrayna məsələsindəki işğalçı mövqeyindən geri çəkilməməsi və Ukraynanın şərq əyalətlərində ruspərəst separatçılara verdiyi dəstək ABŞ başda olmaqla Qərb siyasi kuluarlarında yeni sanksiyalar paketini gündəmə gətirdi.

**Rusiya bundan sonra növbəti sanksiyalarla üzləşdi. Sanksiyalardan sonra isə Rusiya iqtisadiyyatı, bazarları özünün tənəzzül dövrünü yaşayır.**

YENİ MÜSAVAT
N 225 (5834) 9 sentyabr 2014

# Ölü sahiblərinə bahalı başdaşıları qoymaq da yasaq edilir

## Sumqayıtda hüzr üçün hazırlanan yeməklər Saray qəsəbəsində yerləşən 7 saylı internat evinə aparıblar





**Ölkədə təmtəraqlı yas mərasimlərinə qadağa qoyulması barədə hər gün yeni xəbərlər gəlməkdədir. Sumqayıt şəhərinin icra başçısı Eldar Əzizovun şəhərdə təmtəraqlı yas mərasimlərinin keçirilməsinə qadağa qoyması haqda "Yeni Müsavat"da məlumat vermişdik. İcra başçısının müvafiq tapşırığından sonra icra hakimiyyətinin nümayəndələri şəhərdəki yas mərasimlərinə ciddi nəzarət edirlər.**

Sakinlərin bildirdiyinə görə, bir neçə gün bundan öncə Sumqayıtda yas mərasimi keçirilən zaman icra nümayəndələri gələrək, mərasim üçün hazırlanmış yeməkləri, meyvə-tərəvəzi müsadirə edib uşaq evinə aparıblar. Bunu yasda iştirak edən insanlar da təsdiq ediblər.

Onlar bildiriblər ki, icra nümayəndələri ev sahiblərindən bir nəfərin iştirakı ilə xörək qazanlarını Saray qəsəbəsində yerləşən 7 saylı internat evinə aparıblar.

Azvision.az-a daxil olan digər məlumata görə, icra nümayəndələri yaslarda bu kimi halların qarşısını almaq üçün sakinlərə cərimə tətbiq edəcəklərini bildiriblər.

**Onların sözlərinə görə, təmtəraqları yas mərasimlərinə görə, sakinlər 400 manat cərimələnəcəklər.**

Bir daha qeyd edək ki, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Mənzil İstismar Sahələrinin (MİS) rəislərinə təmtəraqlı yas mərasimlərinin birdəfəlik yığışdırılmasını tapşırıb. Tapşırığa əsasən, MİS əməkdaşları ərazilərində olan xeyir-şər evlərini nəzarətə götürüb. Yas mərasimlərində yemək verilməsi qadağan edilib. İcra başçısının tapşırığına əsasən, yas mərasimlərdə ancaq çay süfrəsi açıla bilər. Əks halda yemək, meyvə-tərəvəz məhsulları MİS əməkdaşları tərəfindən müsadirə edilərək uşaq və qocalar evlərinə veriləcək.

Modern.az saytının əldə etdiyi məlumata görə isə hüzr mərasimlərində "yemək-içmək" məsələsinin həllindən sonra qəbiristanlıq problemlərinə də "əncam çəkiləcək".

Belə ki, qəbiristanlıqlarda dəbdəbəli başdaşlarının qoyulmasını əngəlləmək üçün müvafiq orqanlar tərəfindən göstəriş verilib.

**Aldığımız məlumata görə, bu işlə məşğul olan ayrı-ayrı sahibkarların hazırda çətin vəziyyətdə qaldığı bildirilir. Belə ki, onların ölülərə abidə düzəldilməsi məqsədilə xaricdən sifariş etdikləri bahalı daşların ölkəyə girişinə qadağa qoyulub.**

Ümid edək ki, bundan sonra ölülərimiz həm İslam qaydalarına müvafiq dəfn olunacaq, həm də özündən sonrakıları çəkilən ağır xərclərlə "öldürməyəcək"

Deputat Fazil Mustafa yas mərasimlərindən sonra toyların keçirilməsinə də xüsusi nəzarətin qoyulmasını istəyir. "500 nəfər qonaq üçün yemək pulu ödənir, heç onun yarısı bişirilmir. Bəzən şadlıq evinə çatacaq yetərli pul da yığılmır. Bəzi toylarda pul yığışmadığına görə gəlinin girov saxlandığını da eşitmişəm. Musiqinin səsi ayrıca bir terrordur, insanların səsdən toyu tez tərk etməsinin qəsdən düşünürlər ki, yeməklər az yeyilsin. Toya salınan pulun da 70 faizi bu və ya digər yolla şadlıq evinə qalır. İndi bunun adı mədəniyyətsizlik, vəhşilik deyil, nədir?

**Buyurun, mədəniyyət naziri, siz də bu sahədə vətəndaşı razı salan cəsarətli hərəkət edin.** Bu məsələdə vətəndaşların böyük əksəriyyətindən dəstək alacağınızdan əmin ola bilərsiniz. Görək bu menyu terrorunu dayandıra biləcəksinizmi? Yaxşı nümunəni çox vaxt Türkiyədən gətirməyə məcbur oluruq. Bir dəfə tanınmış imkanlı adamını toyunda iştirak edirdim. Fərq qoymadan hər kəsə bir növ yemək gətirdilər, hamı da əminəm ki, gecə vaxtı yeməyin fəsadlarını yaşamadı. Avropada kimə desən ki, Azərbaycan adında ölkə var, orada insanlar sevincli günündə 10-12 növ fərqli yeməyi qarışdırıb yeyir və sabah da hamı sağ-salamat həyata davam edir, bəlkə də inanmazlar. Ona görə də bu sahədə də ayıbımızı mütləq düzəltməliyik" deyə, F.Mustafa öz yazısında qeyd edib.

❑ **Nərgiz LİFTİYEVA**

## İcra hakimiyyətləri və səfirliklərdə audit yoxlamaları bitdi

### Hesablama Palatası məlumatları parlamentə göndərir

**Hesablama Palatasının növbəti kollegiya iclası keçirilib. Palatadan lent.az-a verilən məlumata görə, Kollegiyada dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşundan 2011-2013-cü illər və 2014-cü ilin birinci yarımili üzrə Masallı Rayon İcra Hakimiyyətinə ayrılan vəsaitlərin istifadəsinə, dövlət büdcəsindən Azərbaycanın İspaniya Krallığındakı Səfirliyinin saxlanılmasına ayrılan vəsaitlərin icrası, dövlət rüsumlarının hesablanılması və ödənilməsinə, həmçinin Dövlət Sosial Müdafiə Fondunun Şəmkir rayon şöbəsi üzrə gəlir və xərclərin, o cümlədən, şöbənin saxlanılması xərclərinin proqnozlaşdırılması və icrasına dair həyata keçirilmiş audit tədbirlərinin nəticələri barədə Hesabat və Rəylər geniş müzakirə olunub. Müvafiq qərarlar qəbul edilib.**

Müvafiq zəruri tədbirlərin görülməsi və nəticələri barədə Hesablama Palatasına məlumatların verilməsi üçün Kollegiya Qərarlarının aidiyyəti dövlət qurumlarına göndərilməsi, eyni zamanda audit tədbirlərinin nəticələri barədə məlumatların qanunvericiliklə nəzərdə tutulmuş qaydada Azərbaycan Milli Məclisinə təqdim olunması qərara alınıb.

Kollegiyada, eyni zamanda, dövlət büdcəsindən Qazax Mərkəzi Rayon Xəstəxanası üzrə ayrılan vəsaitlərin proqnozlaşdırılması və icrasına, Kürdəmir Rayon İcra Hakimiyyətinə dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşundan və ehtiyat fondlarından və Ağdaş rayon İcra Hakimiyyətinin tabeliyində olan idarə, müəssisə və təşkilatlara dövlət büdcəsinin "Mənzil və kommunal təsərrüfatı" bölməsindən ayrılan vəsaitlərin istifadəsinə dair Audit proqramları müzakirə edilərək təsdiq olunub.

## Hökumət bəzi məhsulların bahalaşdığını rəsmən etiraf etdi

**Sentyabrın 8-də Dövlət Statistika Komitəsi 2014-cü ilin avqust ayında satılmış kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətlərinin dəyişməsi haqqında rəsmi açıqlama yayıb. Virtualaz.org-un məlumatına görə, açıqlamada deyilir ki, avqust ayında kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri əvvəlki ayla müqayisədə 2,3 faiz, o cümlədən birillik bitkilərin istehsalçı qiymətləri 8,6 artıb, çoxillik bitkilərin, diri heyvanlar və heyvandarlıq məhsullarının istehsalçı qiymətləri isə uyğun olaraq 1,3 və 2,1 faiz azalıb.**

Xiyarın istehsalçı qiymətləri 55,9 faiz, qarpızınkı 32,1 faiz, yoncanınkı 25,7 faiz, lobyanınkı 24,4 faiz, pomidorunku 21,2 faiz, buğdanınkı 3,7 faiz çoxalıb, günəbaxan toxumunun istehsalçı qiymətləri 2 faiz, qarğıdalınınkı 0,1 faiz, yerkökününkü isə 0,2 faiz aşağı düşüb.

Süfrə üzümünün istehsalçı qiymətlərində 7,3 faiz, moruq və böyürtkəninki 21,1 faiz, fındığınkı 5,7 faiz azalma olub. Şaftalının istehsalçı qiymətləri 12,8 faiz, gavalı və göyəminki 4,7 faiz, almanınkı isə 1,1 faiz qalxıb.

Diri heyvanlar və heyvandarlıq məhsullarına gəlincə, təbii balda istehsalçı qiymətləri 1,2 faiz, qoyun ətinin (diri çəkidə) 0,1 faiz artıb. Yumurtanın istehsalçı qiymətləri 4 faiz, quş ətininki (diri çəkidə) 9,9 faiz, südün və mal ətininki (diri çəkidə) 1,5 faiz düşüb.

Avqust ayında yanacaq oduncağının istehsalının əvvəlki ayla müqayisədə 6,0 faiz bahalaşması nəticəsində ümumilikdə meşə təsərrüfatı üzrə istehsalçı qiymətləri indeksi 105,8 faiz təşkil edib.

**Ay ərzində balıq və sair balıqçılıq məhsullarının istehsalçı qiymətlərində əvvəlki ayla müqayisədə heç bir dəyişiklik müşahidə olunmayıb.**

## Sirenanın səmimiliyinə şübhə edənlər



**Samir SARI**

**Dünən işə doğru yol gələrkən məşhur "Yalançının evi yandı, heç kəs inanmadı" zərbül-məsəlinin əyani şəkildə doğruluğunu müşahidə etdim. Həmin məsəlin təfərrüat hissəsini hamınız bilirsiniz, ona görə də təzədən yazmıram. Ona görə də birbaşa mətləbə keçirəm.**

Son vaxtlar Biləcəri yoxuşuyla üzü paytaxta sarı, beynəlxalq avtovağzal-yarmarka-dükan-bazar kompleksinə çatmamış tıxac olur. Onu da aydıralım ki, bu yolu xeyli genişləndiriblər, artıq paytaxta doğru maşınlar 10 cərgə (dəfələrlə saymışam) ilə irəliləyirlər, amma gəlib Ziya Məmmədovun "Titanik"inin tuşuna çatanda 3 cərgəyə keçməli olur, bir-birinin yolunu kəsirlər. İki cərgə maşın da Biləcəridən, avtovağzaldan gəlir, əsas magistrala çıxır, ona görə də tıxac yaranır və bu bir neçə yüz metr məsafəni keçmək üçün insandan 10-15 dəqiqə vaxt, bir neçə yüz qram tər, xeyli əsəb gedir.

Hər gün belədir. Hələ bunun böyük adamlardan birinin, məsələn, spiker Oqtay Əsədovun qəfildən yola çıxması kimi fors-major halları var. Burada fors edən onun mühafizə xidmətidir, mikrofonlarıyla major-major qışqırırlar ki, sağa çəkin, yol verin, yolun solunu boşaldın. Burada da, dediyim kimi, maşınlar 10 cərgədə dəmir-dəmirə gedirlər, manevr etmək imkanı yoxdur. O tərəfdən də spikerin cangüdənləri yol verməyən, daha doğrusu, yol vermək imkanında olmayan avtomobillərin dövlət nömrə nişanının səsləndirib, üzünü danlayırlar. Hələ deyilənə görə, onlar bəzən yekəbaş sürücülərin nömrəsini qeydə alıb yol polisinə verirlər.

Bax, belə bir vəziyyətdə heç kəs başqasına yol vermək istəmir, hamı çalışır ki, bu Bosfor boğazını tezcənə keçib aradan çıxsın.

Yalançının evi də məhz o tıxacda yandı. Biz tıxaca təzə girmişdik ki, sirena səsi eşitdik. Təcili tibbi yardım maşınının səsiydi, yol istəyirdi. Sərnişinlərimizdən biri gileyləndi ki, bunlar da moşennikdirlər, bir az tıxac olan kimi sirenanı qoşub yol istəyirlər, guya ki, maşının salonunda ağır xəstə var, təcili əməliyyata aparılmalıdır. Başqa biri onun sözünə qüvvət verib dedi ki, hə, elədir, o da bir dəfə görüb ki, təcili yardım maşınının salonu boşdur, özü də evə gedir, amma rahat getmək üçün siqnallayır ki, başqa maşınlar çəkilib ona yol versinlər. Üçüncü adam da bildirdi ki, salamatı bir yerə gecikəndə təcili yardım maşını ilə getməkdir, istər-istəməz hamı yol verir.

Amma maraqlıydı, Biləcəri yoxuşunda təcili yardım maşınına heç kəs yol vermirdi. Bir neçə dəqiqə sonra məlum oldu ki, təcili yardım maşını bir deyil, ikidir. İkinci maşının sirenası da həşir qoparmışdı. Yenə də onlardan ötrü yolu açan olmadı. Bu, iki səbəbdən ola bilərdi: ya sıxlıq üzündən arxadan gələn maşınlara yol verilməsi mümkün deyildi, ya da öndə olan avtomobillərin sürücüləri təcili yardım maşınlarının sirenasının səmimiliyinə inanmırdılar. Güman ki, ikinciydi. Çünki yol nə qədər dar, maşınlar nə qədər çox olsa da, spikerin maşın karvanı üçün yol həmişə açılır və onlar sərbəstcə keçib gedirlər. Amma təcili yardım maşınları "Titanik"in yanında ulaya-ulaya qalmışdılar və məşhur batan gəmi kimi "SOS" siqnalı verirdilər.

Axırda necə oldusa, onlar birtəhər yol tapdılar və ümumi sıxlığın içində yaranmış dəhlizlə yoxuş boyu şütüdülər. Bəzi kəmfürsət sürücülər də dərhal başqa cərgələrdən burulub onların arxasına düzüldülər və qəza işıqlarını qoşaraq (guya ki, aparılan xəstənin yaxınlarıdır) təcili yardım maşınlarının arxasınca cumdular.

Camaatın baş-qulağını aparmış sirena səslərinin uzaqlaşmasıyla müəyyən rahatlıq yarandı və təbii ki, heç kəs ilişib tıxacda qalmadı, 10 dəqiqədən sonra hamı artıq "20 Yanvar" metrostansiyasının dairəsinə çatmışdı. Amma yəqin ki, hamıda təcili yardım maşınlarının fırıldaqçılığına dair rəy vardı.

**İşə çatanda bildim, heç demə, bu dəfə onlar yalandan siqnal vermir, özlərinə yol açmaq üçün bəhanə etmirmişlər. Təcili tibbi yardım maşınları Xırdalanda qazdan partlayan binada xəsarət alanları paytaxtdakı xəstəxanalara daşıyırmışlar. Biz də elə bilirdik, onlar həmişəki kimi tıxacda öz üstünlüklərindən sui-istifadə edirlər.**

**Gürcüstan Daxili İşlər Nazirliyinin antiheroin əməliyyatından 2 aya yaxın vaxt ötür. Bu günə qədər 2 ton 790 kiloqram əfqan mənşəli maye heroinin Azərbaycan sərhədlərini necə aşması haqda rəsmi məlumat yoxdur. Bilinən odur ki, maye heroinin yükləndiyi maşın ölkəmizin ərazisinə İrandan keçib və Qazaxa qədər yol qət edərək Gürcüstan sərhədini aşıb.**



# Sabiq MTN əməkdaşından 3 ton heroinlə bağlı ilginc iddia

## Ərəstun Oruclu: "Bəzən dövlətlər transmilli cinayətkar dəstələrlə üz-üzə gəlməmək üçün belə əməliyyatları başqalarının əli ilə keçirir"

Bu günə qədər bu əməliyyat haqda ən müxtəlif məlumatlar yayılsa da, rəsmi qurumlar sanki sükuta qərq olublar.

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri, Milli Təhlükəsizlik Nazirliyinin sabiq əməkdaşı Ərəstun Oruclu** heroin əməliyyatı ilə bağlı facebook divarında status yazıb. Həmin statusu təqdim edirik: "Artıq konturlar aydınlaşmağa başlayır. Gürcüstanın hüquq-mühafizə orqanlarındakı mənbədən əldə etdiyimiz məlumata əsasən, 2790 kq heroinin sərhəddən keçəcəyi barədə ətraflı məlumat onlara Bakıdan ötürülüb".

**"Yeni Müsavat"a məsələ ilə bağlı açıqlama verən Ə.Oruclu deyib ki, əməliyyatın Azərbaycan ərazisində keçirilməməsinin səbəbləri başqadır:** "Paylaşdığım məlumat mötəbər mənbədən aldığım məlumatdır. Xeyli əvvəl almışdım, bəzi dəqiqləşdirmələrdən, araşdırmadan sonra yaymışam. Ola bilər ki, Azərbaycan tərəfi problemlə üzləşməmək üçün aldığı məlumatı Gürcüstan tərəfinə ötürüb. Eyni zamanda, istisna etmirəm ki, bu daxili mübarizənin təzahürüdür. Mümkündür ki, kimsə bu işə himayədarlıq edib, digər tərəf də onu zərbə altına qoyub".

**Ə.Oruclu "Azərbaycan tərəfi problemlə üzləşməmək üçün aldığı məlumatı Gürcüstan tərəfinə ötürüb" fikrini bir qədər də aydınlaşdırıb:** "Böyük



Ərəstun Oruclu

narkotik partiyasından söhbət gedirsə, təbii ki, onun arxasında çox böyük narkokartel dayanır. Yəni bu iş kiçik narkoalverçinin işi deyil. Böyük narkokartellə təkcə bu cür çirkli bizneslə məşğul olmurlar, bu qəbildən olan bütün çirkli işlərə sponsorluq edirlər. Bir sıra hallarda dövlətlər bu cür transmilli cinayətkar dəstələrlə, mütəşəkkil qruplarla üz-üzə gəlməmək üçün belə əməliyyatları başqalarının əli ilə keçirilməsinə nail olurlar. Praktikada belə hallar olub".

Gürcüstan DİN bu əməliyyatı 2 ay əvvəl keçirib və günə qədər bu dövlət əməliyyatdan sonra hansısa problemlə, terror aktı ilə üzləşməsi haqda məlumat yoxdur. Belə bir halda Azərbaycanın antiherion əməliyyatı keçirməkdən çəkinməsi nə dərəcə düzgündür?

**Ə.Oruclu deyir ki, Saakaşvili hakimiyyəti dövründə Gürcüstanın daxili təhlükəsizlik məsələlərinin qurulmasında ABŞ və digər Qərb ölkələri xüsusi xidmət orqanlarının müstəsna xidmətləri olub:** "Bu açıq haradasa yazılmır və ya deyilmir. Amma bu faktdır. Düşünmürəm ki, Gürcüstanın daxili təhlükəsizliyi Azərbaycanın daxili təhlükəsizliyindən daha zəif qorunur".

Qeyd edək ki, Gürcüstanın daxili işlər naziri Aleksandr Çikaidze Azərbaycanla sərhəddə tutulan 2 ton 790 kiloqram heroinlə bağlı demişdi ki, narkotik əfqan mənşəli olmaqla Əfqanıstandan İrana, oradan Azərbaycana, daha sonra Gürcüstana keçirilib.

A.Çikaidze deyib ki, narkomafiya heroini Gürcüstandan Türkiyəyə, oradan isə Avropaya daşımağı planlaşdırıb. Lakin aylar öncə planladıqları əməliyyatla bunun qarşısı alınıb. Narkotik maddəni daşıyanlar Gürcüstan DİN əməkdaşları tərəfindən saxlanılıb.

**Gürcüstan Daxili İşlər Nazirinin açıqlamasından məlum olur ki, "qara bazar"da dəyəri təxminən 170 milyon dollar olan əfqan mənşəli heroinin ələ keçirilməsi üçün qurulan əməliyyat planında Azərbaycan da iştirak edib və narkotik maddə sərhəddən məhz bu əməliyyat planı çərçivəsində, yeni məqsədli və planlı şəkildə buraxılıb.**

❑ **E.MƏMMƏDƏLİYEV**



# "İstəyirsən məşhur ol, istəyirsən qeyri-məşhur, türmə çətin yerdir"

## Gülər Əhmədova: "Mən kaprizli olmamışam, qaydalara riayət etmişəm"

Mayın 5-də azadlığa çıxan sabiq deputat Gülər Əhmədovadan çoxdandır xəbər yoxdur. Azadlıqda olduğu son 4 ay ərzində G.Əhmədova demək olar ki, mediaya xəsisliklə müsahibə verir, cəmiyyətdə gedən proseslərə reaksiya göstərmir.

Amma son olaraq, ANS televiziyasının tanınmış aparıcısı olan qardaşı İlqar Mikayıloğlunun işdən çıxması, ardınca ANS rəhbərliyinin bu məsələdə verdiyi reaksiya diqqət cəlb edən oldu. Rəhbərlik sətiraltı İ.Mikayıloğlunu bacısı G.Əhmədova həbsdə olduğu zaman işdən azad etmədiklərinə işarə vuraraq, "yeqin özünə yağlı qapı tapıb" dedi.

"Yeni Müsavat" isə G.Əhmədova ilə əlaqə saxlayıb, həm qardaşının işdən çıxması, həm də məhbus qadın kimi yaşadıqlarından danışdı.

Müsahibimiz öncə bildirdi ki, mətbuatda görünməməsi və hər hansı mövzu ətrafında danışmaması tamamilə təbiidir: "Danışmalı heç nə görmürəm. Nəsə bir mövzu olsa danışacam".

Müsahibimiz qardaşının işdən çıxması məsələsindən də danışmaq istəmədiyini bildirdi. Dedi ki, qardaşı ilə bu barədə danışsa da, bu mövzuda mediada şərh vermək istəmir: "Bunların hamısı bizim daxili söhbətlərimizdir, mətbuat üçün danışmaq istəmirik".

**Söhbət zamanı G.Əhmədovadan tanınmış eks məhbus qadın olaraq yaşadığı çətinlikləri soruşduq. Məlum, hüquq müdafiəçisi Leyla Yunus vəkili vasitəsilə türmədəki problemləri çatdırıb. Hətta o, həyat yoldaşı Arif Yunusa yazdığı məktubunda saxlandığı kamerada bir gəncəli məhbus qadının ona problem yaratdığını demişdi. G.Əhmədova isə türmə qanunlarının hamı üçün eyni olduğunu dedi:** "Qaydalar hamı üçün eynidir. Mən ümumiyyətlə, kaprizli deyiləm, heç türmədə də elə olmamışam. Ona görə də hər hansı problemim olmayıb. Amma istəyirsən məşhur ol, istəyirsən qeyri-məşhur, türmə çətin yerdir. Qayda-qanuna riayət etməlisən ki, əziyyət çəkməyəsən. Heç bir ayrıcalıq olmur, ən azı mən görməmişəm. Ora qayda-qanun şahdır və sən ona riayət etməlisən".

❑ **Sevinc TELMANQIZI**

# Məhbuslardan yeni xəbərlər var

## Pərviz Həşimli açıq görüş almaq üçün Ədliyyə Nazirliyinə müraciət edib; Fərəc və Sirac Kərimli qardaşlarına yaxınları ilə görüşə icazə verilməyib; Əvəz Zeynallının vergi ilə bağlı apelyasiya şikayəti təmin olunmayıb

**Hazırda həbsxanada olan bir neçə siyasi məhbus var. Onların bəzilərinin məhkəməsi artıq bitib, bəzilərinin işi üzrə proses davam edir. İstintaq dövrünü yaşayan məhbuslar da az deyil.**

Onların səhhətləri və saxlanma şəraitləri ilə maraqlandıq.

Müsavat başqanının müavini Tofiq Yaqublunun qızı Nigar Yaqublu atası ilə iki gün öncə görüşdüyünü və hər şeyin normal olduğunu bildirdi: "Sentyabrın 17-də onun işi üzrə apelyasiya şikayəti çərçivəsində növbəti proses keçiriləcək. Ola bilsin ki, məhkəmə 18-də davam etsin və bitsin. Atamla sentyabrın 7-də görüşdük. Hər şey normaldır. Əvvəllər istilərdən əziyyət çəkirdi. Amma indi havalar soyuduğuna görə, heç nədən şikayəti yoxdur. Təcridxana daxilindəki vəziyyət də pis deyil".

**Hüquq müdafiəçisi İntiqam Əliyevin qızı Nərmin Kamilsoy** atası ilə telefon vasitəsi ilə əlaqə saxladıqlarını söylədi: "Sentyabrın 8-də zəng etmişdi. Hər kəsə salam söylədi. Xüsusilə onu diqqətdə saxlayan, kitab göndərən insanlara təşəkkürlərini çatdırmağımı istədi. Təcridxanada narazı olduğu yeganə şey məktubları ilə bağlıdır. Çünki onun yazdığı məktubların hər biri ciddi senzuradan keçirilir. Telefon danışığımızda hamını sevdiyini və qarşıda gözəl günlər görəcəyimizi söylədi".

**Jurnalist Pərviz Həşimli** isə Ədliyyə Nazirliyinə müraciət edib. Bu barədə onun vəkili Bəhruz Bayramov məlumat verdi: "Sonuncu dəfə onunla keçən həftə görüşmüşəm. Hər şey qaydasındadır. İki gün öncə danışmışıq. Açıq görüş almaq üçün Ədliyyə Nazirliyinə müraciət edib. Lakin arxasınca qaynı ilə bağlı faciəli hadisə baş verdi. Onun qanunsuz həbsi ilə bağlı




Avropa Məhkəməsinə müraciət etmişik".

**Müsavatçı gənc Fərəc Kərimli və qardaşı Sirac Kərimli** təcridxanadakı görüş otaqlarının təmir olunması bəhanəsi ilə keçən həftə valideynləri ilə görüşə bilməyiblər. Vəkil Nemət Kərimli onların səhhətlərinin günbəgün yaxşılaşdığını bildirdi: "Keçən həftənin 4-cü günü onlarla görüşmüşəm. Səhhətləri və saxlanma şəraitlərindən narazılıqları yoxdur. Bu həftə qanunsuz həbsləri ilə bağlı Avropa Məhkəməsinə müraciət ediləcək".

**Fərəc və Sirac Kərimli qardaşlarının atası Raqif Kərimov** övladları ilə telefon vasitəsilə əlaqə saxladıqlarını qeyd etdi: "Heç nədən narahat olmamağımızı bildirdilər. Qeyd etdilər ki, hər şey qaydasındadır. Saxlanma şəraitlərindən razıdılar. Bu gün təcridxana onlar üçün yemək apardım. Görüşə bilməsəm də, əlaqə saxlaya bildim. Dediklərinə görə yaxşıdılar. Təzyiqlər yoxdur. Yemək keçirilməsində problem yoxdur. Sadəcə musiqiyə qulaq asmaq üçün kart istəmişdilər. Ona icazə vermədilər. Amma kitabları götürdülər".

**Bu arada "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallının vergi cəzası Apelyasiya Məhkəməsi tərəfindən qüvvədə saxlanılıb.** Baş redaktorun məhkəmədə iştirakı təmin olunmayıb. Hakim verilən qərardan şikayətə baxılması üçün oktyabrın 30-na vaxt təyin edib. Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsində jurnalistə 9 il azadlıqdan məhrumetmə cəzası çıxarılarkən həmin akta da istinad olunub və məhkəmə hökmündə Əvəz Zeynallıdan 4076 manat vergi borcunun tutularaq, dövlət büdcəsinə ödənilməsi tələbi əksini tapıb. Əvəz Zeynallının həyat yoldaşı Məlahət Zeynallı hər şeyin qaydasında olduğunu nəzərimizə çatdırdı: "Əvəzlə bağlı elə bir ciddi problem yoxdur. Ayda iki dəfə qanunla görüşə icazə verilir. Ana, bacısı və ailəsi ilə birlikdə görüşə bilirik".

**NİDA Vətəndaş Hərəkatının üzvü Zaur Qurbanlının** atası Araz Qurbanli oğlunun səhhətində yaşanan problemlərin aradan qalxdığını diqqətimizə çatdırdı: "Telefonla danışmışıq. Hər şey normaldır. Heç nədən narahatçılığı yoxdur. Açıq görüş verilir. Bir az səhhətində problemlər var idi. Müraciətimizdən sonra Mərkəzi Klinikadan həkim göndərildi. Müayinə olunduqdan sonra təhlükəli hallar aradan qalxdı. Şəxsən bizə qarşı heç bir problem yoxdur".

**Digər NİDA-çı Rəşadət Axundovun həyat yoldaşı Türkan Hüseynova** məhkəmənin qeyri-müəyyən vaxta təxirə salındığını dedi: "Rəşadətin heç nədən şikayəti yoxdur. Saxlanma şəraiti normaldır. Telefon danışıqlarına maneçilik törədilmir. Məhkəmələri müəyyən olunmayan vaxta təxirə salınıb. Hazırda məhkəmənin nə zaman olacağını gözləyirlər".

VHP üzvü Ömər Məmmədovun səhhətində problemlər yaranıb. Gənc fəalın atası Əlyar Məmmədov onun arıqladığını və rənginin ağardığını söylədi: "Bir az qanı aşağı düşüb. Rəngi dəyişib. Görünür bunlar havasızlıqdandır. Dünən Ömərlə görüşdüm. Qəzetlərin verilməsi gecikdirilir. Həftədə bir dəfə zəng edir. Hazırki vəziyyətdə heç nədən narahatçılıq keçirmirik".

❑ **Cavanşir ABBASLI**

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində kadr islahatları başlayıb. İyulun 21-də Komitəyə sədr gətirilən YAP icra katibinin müavini, deputat Mübariz Qurbanlı artıq qurumda yeni kadr təyinatlarına başlayıb. Təxminən iki aya yaxın köhnə komanda ilə çalışan M.Qurbanlının hətta bir müddət işinə davam edəcəyi bildirilsə də, artıq yeni sədr komandasını formalaşdırıb.**



# Dini Komitədə kadr islahatları başlanıb

## Mübariz Qurbanlı bir sıra postlara təzə kadrlar təyin edib, bəzi postlar isə yenilənib...

**Ötən gün Mübariz Qurbanlının əmri ilə Anar Kazımov qurumun Bakı şöbəsinin müdiri təyin edilib.** A.Kazımov buna qədər komitənin Bakı şöbəsində məsləhətçi işləyib. Ancaq bu, M.Qurbanlının dəyişdiyi yeganə kadr deyil. Bir qədər əvvəl o, Dini Komitə sədrinin köməkçisi Daşqın Rəcəblini vəzifəsindən azad edərək, yerinə 28 yaşlı Amid Cavadovu təyin edib.

Gələn məlumatlara görə, artıq Komitə daxilində bir sıra yerdəyişmələr olub. Dini qurumlarla iş şöbəsinin müdiri vəzifəsindən azad edilib. Onun yerinə isə ümumi şöbənin keçmiş müdiri təyin olunub. Ümumi şöbəyə isə yeni kadr gətirilib.

**Bütün bunlar onu göstərir ki, M.Qurbanlı kadr islahatlarını davam etdirəcək və belə demək mümkünsə, özünün yeni komandasını qurmacaq.** Halbuki bir qədər əvvəl iddia olunurdu ki, "yuxarılarında" razılığı ilə M.Qurbanlı əvvəlki sədr Elşad İskəndərovun komandası ilə işləməyə davam edəcək. Çünki hesab olunurdu ki, qurumda normal iş görən komanda formalaşdırılıb. İndi isə görünür situasiya dəyişib və M.Qurbanlıya öz komandasını formalaşdırmağa razılıq veriblər.

Hələlik Mübariz Qurbanlının komandanı yeniləməklə hansı dəyişikliyə imza atacağı aydın deyil. Bu islahatların birbaşa komitənin iş əmsalının yüksəldilməsinə, yoxsa sadəcə, yeni sədrin öz ətrafını yaratması olduğu aydın deyil. Ancaq bir sıra kadr dəyişiklikləri müəyyən fikir yürütməyə əsas verir.

Əlbəttə, komitə sədrinin özünə köməkçi götürməsi, köhnə sədrin köməkçisindən imtina etməsi normaldır. Ancaq məsələn, daha əvvəl komitədə Bakı şöbəsinin müdiri vəzifəsində çalışan Nizami Hüseynov (daha sonra qısa müddətə dini qurumlarla iş şöbəsinə rəhbərlik edib) Komitəyə keçmiş sədr Elşad İskəndərov tərəfindən cəlb olunub.

**Keçmiş əməliyyatçı olan N.Hüseynovun fəaliyyəti nəticəsində komitənin Bakı şöbəsinin fəaliyyəti xeyli aktivləşib.** Daha əvvəl fəaliyyəti hiss olunmayan şöbə paytaxtın 12 rayonunda icmalarla yaxından iş görülməsi, o cümlədən bu ilin əvvəlindən başlayaraq Bakıda bir sıra məscidlərdən bölücü təriqətlərin uzaqlaşdırılması, radikallığı təbliğ edən din xadimlərinin məscidlərdən uzaqlaşdırılması istiqamətində bir sıra ciddi işlər görüb.

Belə bir kadrın komitədən uzaqlaşdırılması onu deməyə əsas verir ki, islahatlar daha çox köhnə sədrin adamlarının komitədən "təmizlənməsinə" xidmət edir. Hər halda, bütün bunlar yaxın zamanlarda daha aydın şəkildə bilinəcək.

**M.Qurbanlının başqa hansı kadrları işdən çıxaracağı, Komitənin fəaliyyətində hansı yenilikləri edəcəyi bu mövzuda yaranmış suallara qismən aydınlıq gətirəcək.** Yeri gəlmişkən, qurum sədri hələlik fəaliyyət istiqamətləri, görüləcək işlərlə bağlı planlarını ictimaiyyətə təqdim etməyib. Yalnız yerli icmalarla rayon rəhbərlikləri səviyyəsində görüşər keçirən Qurbanlının dini sferada fəaliyyət planları bu günədək aydın deyil.

Xatırladaq ki, o, bu il iyulun 21-də quruma sədr təyin olunub. Ondan əvvəlki komitə sədri Elşad İskəndərov mayın 2-də gözlənilmədən postundan azad edilib. Onu da qeyd edək ki, hazırda dini sahədə fəaliyyət QMİ, DQİDK və prezidentin müşaviri Kamal Abdullanın rəhbərlik etdiyi quruma tapşırılıb.

❑ **KƏNAN**

# Sərkisyan dəlidir, yoxsa...

## Erməni psixoloqlar prezidentləri haqda nələr deyib?


Serj Sərkisyan

**Ermənistan prezidenti Serj Sərkisyanın jest və manevrləri hər zaman dünya mediasının gündəmində olur. Elə Ermənistan mətbuatında da zaman-zaman onun psixoloji portreti çəkilir, psixoloqların rəyi əsasında maraqlı materiallar hazırlanır.**

Məsələn, Ermənistanın birinci prezidenti Levon Ter- Petrosyan psixoloji tip etibarilə şizoid sayılır. İkinci prezident Robert Köçəryan epileptoiddir. Serj Sərkisyan isə bu iki tip arasındadır. Erməni psixoloq Samvel Xusoyan bildirib ki, hər üç prezidentin psixoloji tipajı fərqli olub.

Şizoid tip prezident inkişaf etmiş beyni, məlumat bazası ilə fərqlənir. Amma onun qənaətcil şəxs olduğunu demək olmaz. Psixoloq həmçinin deyib ki, sözügedən tip şizofreniya xəstəliyindən əziyyət çəkmir. İkinci prezidentin isə təşkilatçılıq qabiliyyəti yoxdur. Onun güclü xarakteri, habelə hakimiyyəti idarə etmək gücü var. Üçüncü prezident - Serj Sərkisyan isə bu iki tip arasında bir tipdir.

Psixoloqlar onun gülüşündə də anormallıq olduğunu düşünür. Adətən dodağının bir ucu ilə gülümsəyən Sərkisyanın bunu düşünərək yox, qeyri-təbii etdiyi deyilir. Buna səbəb onun üzündəki sinirlərlə bağlıdır. Amma bəzi hallarda bu, özündən razılıq və təkəbbürlülüyün əlaməti də ola bilər. Belə təəssürat yaranır ki, Serj Sərkisyan insanlarla danışanda özünü onlardan yüksəkdə tutur və dialoqun necə bitəcəyi ilə bağlı öncədən məlumatlı olur. Bundan başqa, onun bütün situasiyanı öncədən nəzarəti altına alması, onu idarə etməsi kimi təəssürat da formalaşır.

Bundan başqa, müəyyən edilib ki, S.Sərkisyan xarizmatik lider keyfiyyətinə malik deyil. Məktəb şəkillərində o, hər zaman küncdə, görünməyən yerdə dayanıb.

Onun nitqi barədə qənaətlərə gəlincə, bildirilir ki, o, çox zaman siyasətdə klassik olmayan, daha doğrusu çox da qəbul edilməyən ağır sözlərdən istifadə edir. Məsələn, bu sıraya "heç vaxt", "heç bir şərt altında", "heç bir tərəddüd ola bilməz", "bundan qaçış yoxdur", "başqa variant ola bilməz"... Politoloqlar deyirlər ki, elmdə "strong words" (ağır sözlər) adlandırılan bu sözlərdən adətən xatizma qıtlığından əziyyət çəkən şəxslər istifadə edir.

S.Sərkisyan öz məqsədlərinə çatmaq üçün hər cür əməkdaşlığa, hiyləgərliyə, aldadıcı manevrlərə hazırdır. Bütün mümkün hiyləgərlikləri siyasi mübarizədə istifadə edir. Onun bu cür jestləri, bəzən yersiz sözləri, çıxışları da barəsində aldadıcı mövqe yaradır. Onun nə zaman nə deyəcəyi təxmin edilmir.

**Bundan başqa, davranış səviyyəsi nəzərə alınanda, onun adaptasiya problemi olduğu da nəzərə çarpır. Müşahidəçilər deyir ki, S.Sərkisyan bəzi diplomatik görüşlərdə özünü hazırlıqsız, kompleksli uşaq kimi aparır. Bu da daha çox onun jest və manevr qıtlığı ilə izah edilir.**

❑ **Sevinc TELMANQIZI**

# "Baş kəsməkdən ayrı nə iş versələr, razıyam"...

## Azərbaycan yazarlarını girov alan İŞİD onları iki seçim qarşısında qoyur; nəticələr heyrətləndiricidir...


Cəlil Cavanşir


Dilqəm Əhməd


Mirzə Sakit


Əli Əkbər

**"İŞİD sizi girov götürüb, iki seçənək təklif edir. Ya sənin başını kəsəcəklər; ya da İŞİD üzvü olmalısan, bunun prezentasiyası kimi də başqa bir baş kəsməlisən".**

İnsan üçün faciəvi dilemmadır deyilmi? Lakin bu cür dilemmalarla İraqda, oranın Mosul və Telafer şəhərlərində rastlaşanlar olub. İŞİD hətta İraq xristianlarına belə təklif edib ki, onlara qoşulsunlar, əks halda öləcəklər. Və minlərlə can alıblar...

Bizsə insanın tükünü ürpərdən bu xəyali səhnəni real yazıya çevirmək qərarına gəldik. Bir neçə yazardan açıq şəkildə bunu soruşduq: **"Bu vəziyyətdə nə edərsiniz?"**

Mövzu planlamada verilən də **əməkdaşımız Məhəmməd Türkmən** - "Yaşamam üçün hər şey edərəm, bıçağı onlardan alıb, baş da kəsərəm", - dedi....

Bu, bir gənc reportyorun reaksiyasıdır. Bəs, digər yazar və cəmiyyət insanı nə fikirləşir? Onlara öz daxili aləmlərinə, içlərinə nəzər salmaq imkanı verən bu suala kim hansı cavabı verdi?

**Yazar Cəlil Cavanşir** ilk növbədə İŞİD-ın dünyada yaratdığı təəssüratdan bəhs etdi:

"İŞİD terrorçuları dünyanın əsas problemi hesab oluna bilər. XXI əsrdə bu şəkildə dini təbliğat yol verilməzdir. Bu insanlığa böyük zərbədir. Bu terrora qarşı dünya birliyi həmrəy olmalı, mübarizəni intensivləşdirməlidir. Bu vəhşilikdir. Din isə vəhşi və qəddar olmamalıdır. İslamı bu şəkildə gözdən salmaq böyük güclərə, xüsusən də ABŞ və İsrailə sərf etdiyi üçün ilk olaraq müsəlmanlar bu vəhşiliyə qarşı çıxmalıdır".

Həmin andakı xəyali davranışına gəldikdə isə belə cavab verdi:

"Mən heç vaxt zor qarşısında inancımı dəyişmərəm. Amma başımın da heyvan kimi kəsilməyini istəmərəm. Ümid edirəm ki, bu vəhşilik dayandırılacaq. Heç vaxt onlar deyəni qəbul etməzdim. Ölüm belə olsa vəhşilərlə eyni cərgədə olmazdım. Qana və zora nifrət edirəm. Yəqin ki, başımın kəsilməsinə imkan verməzdim və belə bir təhlükədən ya qaçardım, ya da intihar edərdim. Onu da deyim ki, mən aqnostikəm".

**Gənc yazar Dilqəm Əhməd** isə İŞİD-ə əsir düşdüyü halda belə edəcəyini söylədi:

"Mən düşünmürəm ki, İŞİD-də başqa bir növ iş yoxdur. Əgər əsir düşsəm, təbii ki, onların inancını qəbul edəcəm və xahiş edəcəm ki, baş kəsməkdən əlavə iş varsa, onları edim. Məsələn, isti zonadır, su ehtiyatı yığa bilərəm onlar üçün, quyu qaza bilərəm. Və ya dəmirçixanaları varsa, qılınclarını itilətmək üçün usta yanında şagirdliyə başlaya bilərəm. Və ya həmin başkəsmə səhnələrini görüntüyə alıb, Youtubeyə yükləmək kimi texniki işlərdə onlara yardımçı ola bilərəm. Və ya onların dini ədəbiyyatlarını paylamaqda kömək edə bilərəm. Yox, əgər bunları qəbul etməsələr, illah ki, baş kəsməyimi istəsələr, birtəhər yolunu tapıb körpüyə çıxıb intihar edərəm".

"Həmin gün onlara deyərdim ki, bu gün bərk sərxoşam, əgər desəm ki, sizin dininizə gəlirəm, onda dediklərim qeyri-ciddi səslənər. İcazə verin sabah açılsın, "paxmelimi" edim, sonra sizin hüzurunuzda hazıram" - deyən, **satirik - şair Mirzə Sakit** sabahısı gün vəziyyətdən necə çıxmasını da ironik halda təsvir etdi:

"Sonra da "paxmel"dən sonra deyəcəkdim ki, mənim boğazımda Sovetdən qalma haram ət tikəsi qalıb, əgər bıçağınızı boğazıma çəksəniz bıçağınız murdarlanacaq".

"Onlara Əli Əkbərin "Götenin röyası" romanını paylayardım ki, oxuyub refreş etsinlər"-deyən, **şair Zahir Əzəmət** isə bu insanların inqilaba gərək duyduqlarını söylədi:

"Doğru deyirəm, İŞİD üzvlərinin seksual inqilaba ehtiyacı var. Ümumiyyətlə, İraq, Misir, Əfqanıstan kimi ölkələrdə sputniklə bütün telekanallara Hollandiyanın, İtaliyanın 18+ kanallarının yayımını ötürmək lazımdır. Virusu virusla öldürərlər demiş, Dədə Qorqud".

**Şair Faiq Balabəyli** isə heç vəchlə insan başı kəsə bilməyəcəyini dedi:

"Mən baş kəsə bilmərəm, bu aydın. İkinci tərəfdən İŞİD-in məni tutub Şəhriyar demiş: "Ya sən İŞİD-i qəbul eylə mənim dinimə gəl"- deməsi də qeyri mümkündür. Bu haqda heç fikirləşməmişəm. Zamanında qərar qəbul etmək olar. Ancaq qəti deyə bilərəm ki, mən baş kəsmərəm. Heç başımı da kəsdirmərəm".

Yekunda redaksiya əməkdaşlarımızın bir neçəsini də bu dilemma qarşısında qoyduq.

"Əlbəttə, həyatımı xilas edərdim", - deyən, **Etibar Seyidağa** bu seçimin daha realist olduğunu bildirdi.

İŞİD üzvlərinin bu seçimləri qarşısında qalacaq olarsa, ikincini seçəcəyini deyən, **Röya Rəfiyeva** isə sağ qalmaq üçün başqa insanın başını kəsə biləcəyini söylədi.

**Yəqin ki, indi çoxunuz bu çıxılmaz yoldan hansını seçəcəyinizi düşünürsünüz...**

❑ **Fəridə ABDIYEVA**

YENİ MÜSAVAT
N 225 (5934) 9 sentyabr 2014



# Bakının üstünü alan duman nədir?

## Telman Zeynalov: "Bir az külək olan kimi tikililərin tozu havaya qalxır"

**Son bir neçə gündür ki, paytaxt Bakıda üzərində toz-duman müşahidə edilir. Təsadüfi deyil ki, Səhiyyə Nazirliyinin məlumatında da son illər paytaxtda xəstələnmələr sırasında birinci yerin tənəffüs yolu orqanlarının xəstəliklərinin tutduğu qeyd olunur. Bu, həm də ağciyər xərçəngi riskini artırır.**

Maraqlıdır, Bakının baş üzərində olan bu tüstü dumanın əsl səbəbi nədir?

**Ekoloq Telman Zeynalov** toz-dumanın tikililərlə bağlı olduğunu dedi: "Qobustan tərəfdə bu və digər regionlarda çoxlu sayda obyektlər tikilir. Bir az külək olan kimi bu tikililərin tozu havaya qalxır. Həmçinin son dövrlərdə şimal, şimal-şərq küləkləri əsirdi. Şimal-şərq küləyi də Türkmənistanda olan tozu Azərbaycana gətirir. Bakıya boş yerə küləklər şəhəri deməyiblər. Son 20-25 ildə küləklər zəif idi. Ancaq hazırda o əvvəlki güclü küləklər yenidən başlayıb".

**Onu da qeyd edək ki, bir neçə ay bundan əvvəl akademik Nizami Süleymanov Bakıda atmosferə saatda 3 min ton, dəqiqədə 50 ton zəhərli tullantı atıldığı ilə bağlı həyəcan təbili çalmışdı. Ölkənin ekoloji durumunun fəlakətli həddə olduğunu qeyd edən N.Süleymanov təkcə Bakının havasının çirklənməsinin 75 faizi avtomobillərin payına düşdüyünü bildirmişdi:** "Rəsmi statistikaya görə, bu gün Azərbaycanda 1 milyon 245 min avtomobil var. Bunun da 70-75 faizi Bakı şəhərindədir. Onların isə atmosferə atdığı və insan orqanizmi üçün olduqca təhlükəli olan zəhərli qazların miqdarı ən azı 25-26 milyon ton təşkil edir".

**Paytaxtda vəziyyətin daha dəhşətli olduğunu vurğulayan N. Süleymanovun sözlərinə görə, hər il təkcə Bakıya avtomobillərdən 25-26 milyon ton zəhərli qaz atılır:** "Bu, hər ay azı 2 milyon ton, hər gün isə 70 min ton zəhər deməkdir. Bu hesabla məlum olur ki, atmosferə saatda təqribən 3 min ton, dəqiqə isə 50 ton zəhərli tullantı atılır. Bu, çox dəhşətli göstəricidir".

Alimin sözlərinə görə, xüsusilə tıxacların olduğu ərazilərdə yaşayan insanlar xərçəng xəstəliyinə potensial namizədlərdir: "Əgər bir şəhərə dəqiqədə 50 ton zəhər havaya buraxılırsa, orda necə yaşamaq olar? Belə davam etsə, Bakı şəhəri ekoloji vəziyyəti fəlakətli olan Tehran və digər şəhərləri keçəcək. Amma mən və mənim alim həmkarlarım Bakını çirkli havası olan şəhərlərlə yox, Avropanın təmiz şəhərləri ilə müqayisə etmək istərdik. Müqayisə üçün deyim ki, bir çox ölkələrdə, o cümlədən bütün Avropada avtomobillərin ətrafa atdığı zərərli qazların mütəmadi olaraq miqdarı yoxlanılır".

**N.Süleymanov hökumətə təkliflərini də irəli sürmüşdü. O, təklifində ildə bir dəfə "ekologiya ayı" keçirməkdənsə, hər saat ekologiyaya nəzarət edən bir qurum yaratmaq lazım olduğunu və belə bir elmi mərkəzə böyük ehtiyac duyulduğunu vurğulasa da, bu günə kimi onun təklifinə məhəl qoyan olmayıb.**

❑ **Günel MANAFLI**


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**





# "Övladımın liseydə oxumasına imkan vermirlər"

## İkinci qrup əlil Heydər Əliyev adına liseyin direktorunun onu aldatdığını deyir

**"Qızım bu il birinci sinfə getməlidir. Xətai rayonunda yerləşən Heydər Əliyev adına liseyin direktoru bir ay bundan əvvəl övladımı qəbul edəcəyini desə də, indi bu fikrindən daşınıb".**

Bu sözləri Bakı şəhər sakini, 2-ci qrup əlil Ələkbər Əliyev redaksiyamıza gələrək deyib. Şikayətçi lisey direktoru tərəfindən aldadıldığını iddia edir: "Qızım bu il məktəbə getməlidir, indi də deyirlər ki, yer yoxdur. Halbuki direktor Fikrət müəllim əvvəl söz vermişdi ki, qızın liseydə oxuyacaq. İndi isə gedirəm, mühafizə xidmətinin əməkdaşları rəhbərliklə əlaqə saxlayır. Sonra da mənə bildirirlər ki, guya, liseydə yer yoxdur. Heç direktorun qəbuluna da düşə bilmirəm. Liseydə yerin olmadığını deyirlər, amma məndən sonra bir neçə nəfərin övladını liseyə qəbul ediblər. İkinci qrup əliləm, heç yerdə işləmirəm, 130 manat təqaüd alıram. Bir qızım var, istəyirəm yaxşı təhsil alsın. Amma görünür ki, bu ölkədə kasıbın balasına da yer yoxdur. Bilmirəm, bəlkə qızımı mən kasıb olduğum üçün liseyə qəbul etməyiblər".

**Məsələ ilə bağlı qarşı tərəfin mövqeyini almaq üçün Heydər Əliyev adına liseyə dəfələrlə zəng etsək də, direktorla danışa bilmədik. Direktorun gah işdə olmadığını, gah da qonaqları gəldiyini dedilər.**

❑ **Günel MANAFLI**

# Gəncə sakini pensiyasının mənimsənildiyini deyir

## DSMF isə onun iddialarının öz təsdiqini tapmadığını bildirir

**Gəncə şəhər sakini Ələkbər Qələndərov 6 illik pensiyasını ala bilməməsindən şikayətçidir. Bununla əlaqədar bir çox dövlət qurumlarına müraciət edən Ələkbər Qələndərov "Yeni Müsavat"a göndərdiyi məktubda yazır: "2011-ci ildə müvəqqəti olaraq Rusiyada yaşamalı oldum. 2011-ci ildə isə vətənə qayıtdım. Pensiyaya çıxmaq üçün Gəncə şəhəri, Kəpəz rayonunun Sosial Müdafiə Fonduna getdim. Dedilər ki, 6 il bundan öncə pensiyaya çıxmalı idin.**

Soruşdum ki, ötən 6 ilin pensiyasını ala bilərəm? Rayonunun Sosial Müdafiə Fondunun rəhbəri Arif Qəmbərov dedi ki, 6 ilin 3 ilini ala bilərsən. Arif Qəmbərov və onun köməkçisi Malik məndən xəbərsiz pensiya kartımı açıb, mənim hesabımdan 3300 AZN pul çıxarıblar. Bir gün sonra isə mənə zəng vurdular ki, kartın gəlib, gəl apar. Kartı açılmış şəkildə mənə göstərdilər, mənə qol çəkdirdilər. Kartımı bankomatda yoxlayanda gördüm ki, 3300 manat pensiyamı çıxarıblar.

Arif Qəmbərov və onun köməkçisi Malik mənə dedilər ki, kartdakı puldan "iki pay" bizə, "bir pay" sənə çatır". 73 yaşlı Ələkbər Qələndərov yazır ki, sürücü olub, 34 il iş stajı var: "İndi hüquqlarım pozulub, məni get-gələ salıblar".

Şikayət ərizəsi ilə bağlı şəxsin özü ilə əlaqə saxladıq. Şifahi söhbət zamanı Ələkbər Qələndərov pensiya kartından pulun icazəsiz və xəbərsiz çıxarıldığını yox, sözügedən şəxslərlə gəldiyi razılığa əsasən çıxarıldığını dedi. Ələkbər Qələndərovun sözlərinə görə, 3 illik pensiyanın 1/3-ni almağa razılaşıb, sonradan öyrənib ki, kartda 3 illik yox, 6 illik pensiya haqqı məbləği olmalı imiş.

Bu deyilənlərə aydınlıq gətirmək üçün Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti ilə əlaqə saxladıq.

Qələndər Ələkbərovun şikayət məktubu ilə bağlı Dövlət Sosial Müdafiə Fondundan bildirdilər ki, o, bu mövzuda müxtəlif instansiyalara müraciətlər ünvanlayıb: **"2011-ci ildə baş verməsi iddia olunan bu məsələ həm DSMF, həm də digər müvafiq orqanlar tərəfindən araşdırılıb, amma öz təsdiqini tapmayıb".**

❑ **Nərgiz LİFTİYEVA**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34






# Ölkədə ciddi bahalaşma olacağı anonsu

## Payızda ərzaq və çörəyin qiyməti bahalaşacaq; **Vahid Məhərrəmov:** "Kartofun qiymətində də ciddi artım olacaq"

**Yaz və yay aylarında yağıntının az olması, quraqlıq və həddindən artıq isti hava şəraiti kənd təsərrüfatına ciddi ziyan vurub. Bu quraqlıq nəticəsində əkin sahələrinə dəyən ziyandan həm istehsalçılar, həm də istehlakçılar əziyyət çəkir. Quraqlıq nəticəsində əkin sahələrinə ziyan dəydiyi üçün payızda unun və un məmulatlarının qiyməti bahalaşa bilər.**

Bunu "Yeni Müsavat"a açıqlamasında **kənd təsərrüfatı mütəxəssisi Vahid Məhərrəmov** deyib. V.Məhərrəmovun sözlərinə görə, yaxın zamanlarda taxılın qiyməti qalxa bilər: "Bahalaşma tendensiyası davam edəcək. Artıq yumurtanın qiyməti təxminən 30 faiz bahalaşıb. Bu həm də yemin qiymətinin artması ilə əlaqələndirilir. Bizim apardığımız monitorinq onu deməyə əsas verir ki, bu il yemin, otun az istehsal olunması həm də ət və ət məhsullarının, süd və süd məhsullarının qiymətini qaldıracaq. Digər tərəfdən, dünyada baş verənlər, xüsusən də Qara dəniz ətrafında baş verən hadisələr nəticəsində bəlli olur ki, taxıl, taxıl məhsullarının xüsusən də buğdanın qiyməti dünya bazarında stabil deyil. Buğdanın qiyməti gah artır, gah azalır. Artma ehtimalı isə daha böyükdür. Ona görə ki, indi taxıl mövsümüdür. Xüsusən də bizim zonada taxıl istehsalı demək olar ki, indi yekunlaşır. İndiki halda taxılın qiymətinin stabil olmaması ondan xəbər verir ki, yaxın zamanlarda taxılın qiyməti qalxa bilər. Bu da öz növbəsində unun və un məmulatlarının qiymətinə təsir edəcək. Meyvə, tərəvəz, ət, süd məhsulları, yumurta və digər ərzaq mallarının, kənd təsərrüfatı məhsullarının qiymətində artım gözlənilir. Xüsusən də kartofun qiymətində ciddi artım olacaq. Keçən il bu vaxt kartofun satışı 35-40 qəpik idisə, indi 80 qəpik 1 manat arasındadır. Təbii ki, söhbət keyfiyyəti yaxşı olan kartofdan gedir. Bilirsiniz ki, Rusiya Avropadan kənd təsərrüfatı məhsullarına, ərzaq mallarına embarqo qoyub və sanki bu məhsulların digər ölkələrə axınının qarşısı alınıb. Bu da öz növbəsində bazarın yenidən formalaşması üçün müddət tələb edir. Burda da problem olacaq. Ona görə ki, istehsal olunan məhsula yeni bazar axtarılacaq və bazarların axtarışı bir müddət çəkəcək. Yəni bunun normal qaydasına düşməsi üçün zamana ehtiyac olacaq. Bu da öz növbəsində mütləq çatışmayan ərzaq mallarının, kənd təsərrüfatı məhsullarının qiymətinin artımını şərtləndirəcək. Ümumi götürdükdə isə dediyim kimi artıq qiymət artımı Azərbaycanda baş verib. Təəssüf ki, buna hökumət nümayəndələri başqa cür şərh verir və keçən il qiymətlərin aşağı olduğunu əsas gətirirlər. Ancaq onların son açıqlamasında olan məlumatların heç biri reallıqla uyğun gəlmir. Keçən ildə Azərbaycanda iyul ayında kənd təsərrüfatı məhsullarının qiyməti yüksək idi. Bu ildə keçən ilki qiymətlərə nisbətən 15-20 faiz yüksək olub. Daha sonra avqust ayında isə sıçrayışla artım oldu. Bu da həm ölkədə istehsal olunan məhsulun az olması və keyfiyyətin aşağı olması ilə əlaqədardır, həm də istehsal olunan məhsulun bir hissəsinin Rusiyaya ixracı ilə bağlıdır. Demək olar ki, artıq ölkədə ərzaq malları və kənd təsərrüfatı məhsulları əvvəlki qədər deyil, azalma mövcuddur. Bu da təbii ki, qiymətlərə öz təsirini göstərir".



Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətinin rəhbəri Murtuzəli Hacıyevin ANS PRESS-ə verdiyi məlumata görə isə bu il taxılla bağlı ölkədə problem yaşanmayacaq.

"Aran rayonunda əkin sahələrinə dolunun düşməsi və Azərbaycanda hökm sürməsi taxıl sahələrinə müəyyən qədər ziyan vurdu. Əsas səbəblərdən biri isə bu ilin quraqlıq keçməsi olub. Bununla da Azərbaycanda taxıl istehsalı müəyyən qədər aşağı düşüb. Lakin heç bir bahalaşma olmayacaq. Çünki Azərbaycan lazım olan taxıl ehtiyatını idxal edilən məhsul hesabına ödəyəcək. Dünya bazarına nəzər saldıqda taxılın qiyməti ucuzlaşıb" deyə, Murtuzəli Hacıyev bildirib.

İqtisadiyyat və Sənaye Nazirliyindən isə bildiriblər ki, hazırda taxıl bazarında qiymət artımı müşahidə olunmayıb. Nazirliyin mətbuat xidmətinin rəhbəri Abbas Əliyevin verdiyi məlumata görə, Bakıda un satışında da heç bir qiymət artımı qeydə alınmayıb.

**"Mütəmadi olaraq İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən istehsalat bazarına dövlət nəzarəti həyata keçirilir. Bu həm məhsulların keyfiyyətli, həm də süni qiymət artımının qarşısının alınmasını əhatə edir", - deyə Abbas Əliyev vurğulayıb.**

❑ **Günel MANAFLI**

# 80 yaşında süpürgəçi olmamaq üçün nə etməli...

## **Sahib Məmmədov:** "İnsanları bu yaşda təmizlik işlərində çalışmağa vadar edən aldıqları pensiya haqqının az olmasıdır" **Əmrah Fəqanoğlu:** "Əgər ailə üzvlərinin sayı çoxdursa, ünvanlı yardım da ala bilərlər"

**"Yeni Müsavat"ın ötən sayında 80 yaşlı Zəhra nənənin süpürgəçilik etməsi haqda yazı dərc olunub. Hər birimiz paytaxt küçələrində çoxlu sayda yaşlı insanların ağır zəhmət tələb edən bu cür işlərlə məşğul olduğunu görmüşük. Bəs bu halda ahıl yaşlı insanların işlərdə çalışması əmək qanunvericiliyi baxımından düzgündürmü? Yaşlıları bu durumdan xilas etmək üçün nə kimi tədbirlər görülməlidir?**

### Qanunvericilik məhdudiyyət qoymur

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov** deyir ki, dövlət büdcəsindən maliyyələşməyən təsərrüfat birliklərində çalışanlara hər hansı yaş məhdudiyyəti qoyulmur: "Qanunvericilik baxımından yaşlı insanların çalışması üçün heç bir məhdudiyyət yoxdur. İnsanların ehtiyacı var və həmin kommunal xidmət birlikləri də orada uzun müddət çalışan bu cür ehtiyaclı şəxsləri humanistlik edərək işdən çıxartmırlar. Ancaq əlbəttə ki, insanları bu yaşda təmizlik işlərində çalışmağa vadar edən aldıqları pensiya haqqının az olmasıdır. Ancaq qanun buna imkan verir. Əgər hər hansı büdcə təşkilatı və ya dövlət qulluğu olsa idi, bu zaman yaş məhdudiyyətləri tətbiq olunardı. Kommunal xidmət sahələri təsərrüfat hesablı olduğuna görə burada yaş məhdudiyyəti yoxdur".



Sözügedən məsələyə münasibət bildirən **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəis müavini Məhərrəm Məhərov** da bildirdi ki, qanunda yalnız dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda yaş həddi müəyyən olunub: "Digər müəssisələrdə hər hansı yaş məhdudiyyəti yoxdur. Əgər o insan işini yerinə yetirə bilirsə, işləyə bilər, işləyə bilmirsə təbii ki, işdən çıxarılacaq. Ancaq məhz yaşına görə işdən çıxarıla bilməz".

### DSMF: "Həyat yoldaşının pensiyasını ala bilər"

Yaşlı insanların sosial təminatı məsələsinə gəlincə, **Dövlət Sosial Müdafiə Fondunun mətbuat katibi Əmrah Fəqanoğlu** deyir ki, qanunvericilik bu insanlara sosial yardım almaq hüququ verir: "Əgər ailə üzvlərinin sayı çoxdursa, ünvanlı yardım da ala bilərlər. Və ya həmin qadının həyat yoldaşı yoxdursa və onun aldığı pensiyadan daha çox alırdısa, həmin qadın həyat yoldaşının pensiyasını ala bilər. Əgər pensiyaçının himayəsində valideynini itirmiş uşaq varsa, ona əlavə müavinət verilir. DSMF qanunların icrası ilə məşğul olur, qanunda necə yazılıb, qəbul olunursa, ona uyğun fəaliyyət göstərir.

Yaşlı insanlar əmək pensiyaçılarıdırsa, normalda 173 manatdan başlayaraq pensiya alırlar. İşləyib-işləməmək onların öz hüququdur".

### "Özəl pensiya fondları da olmalıdır"

**İqtisadçı ekspert Vüqar Bayramlı** isə yaşlı insanların ağır zəhmət tələb edən işlərdə çalışmasının səbəbini pensiya məbləğinin azlığında görür: "Əksər inkişaf etmiş ölkələrdə vətəndaşlar işlədikləri müddətdə yalnız dövlət pensiya fonduna deyil, həmçinin özəl fondlara ödənişlər etmək imkanına malikdir. Bu da imkan verir ki, vətəndaş pensiya yaşına çatanda yalnız dövlətdən deyil, eyni zamanda özəl pensiya fondundan pensiya ala bilsin. Məsələn, ABŞ-da vətəndaşların əksəriyyəti işlədikləri müddətdə həm dövlət, həm də özəl pensiya fondlarına ödəniş edirlər və pensiya yaşına çatanda iki mənbədən sosial ödəniş ala bilirlər.

Nəzərə alaq ki, bu gün MDB ölkələrində, o cümlədən Azərbaycanda praktik olaraq orta pensiya məbləği pensiyaçının xərclərini ödəmək üçün yetərli deyil. Bu da onunla bağlıdır ki, həmin ölkələrdə pensiya sistemi sovet dövründən sonra qurulub. O dövrdə pensiyalar dövlət tərəfindən müəyyənləşdirilirdi və bunun sosial ödənişlərlə heç bir bağlılığı yox idi. Azərbaycan orta pensiya məbləğinə görə, MDB ölkələri arasında üçüncüdür. Ancaq ölkəmizdə pensiya məbləğinin bütün kateqoriyadan olan insanlar üçün yetərli olduğunu demək mümkün deyil".

### "Yaşlı insanlara yüngül işlər təklif olunmalıdır"

Ekspert deyir ki, əgər pensiyaçılar aldıqları məbləğin yetərli olmaması səbəbindən əlavə iş axtarırlarsa, onlara ağır zəhmət tələb etməyən işlər təklif olunmalıdır: "İnkişaf etməkdə olan ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, pensiya yaşlı vətəndaşlara fiziki baxımda çox əmək tələb etməyən yüngül işlərdə çalışmaq imkanı yaradılır. Elə xidmətlər var ki, onları pensiya yaşında olan insanlar görə bilərlər. Bu onlara imkan verəcək ki, pensiyadan kənar müəyyən gəlir əldə edə bilsinlər. Bir çox ölkələrdə ağır zəhmət tələb etməyən işlər yalnız aztəminatlı, pensiya yaşına çatmış insanlar üçün nəzərdə tutulur. Belə yüngül işlərin yalnız pensiyaçılar üçün təklif olunması Azərbaycanda da məqsədəuyğundur.

**Ali təhsilli pensiyaçıların elmi tədqiqat mərkəzlərində işlə təmin olunmasına ehtiyac var. Təhsili olmayanlar üçün isə kinoteatrlarda bilet satışı , ictimai nəqliyyat vasitələrində biletlərin satışı kimi işlər təklif oluna bilər. Bu işlərdə elə də yüksək əmək qüvvəsinə ehtiyac yoxdur, eləcə də əmək haqqı yüksək deyil. Nəzərə alaq ki, pensiyaçılar yüksək əmək haqqına iddialı deyil. Onlar üçün kənar bir gəlir mənbəyinin olması yetərlidir".**

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT

Son səhifə

N 225 (5934) 9 sentyabr 2014

# Toyda yeməyə qızıl verdilər

Türkiyədə qeyri-adi hadisə baş verib. Ankaranın tanınmış iş adamlarından Talat Sam, oğlunun toyu üçün Səudiyyə Ərəbistanı şeyxinin hədiyyə göndərdiyi tortundan qonaqlara təqdim edib. Türkiyədə əslində hədiyyə olaraq qonaqlar yeni evlənən cütlüklərə qızıl taxırlar. Ancaq bu dəfə əksinə olub. Tortun üzərində 250 qramlıq yeməli qızıl olub. Dəyəri təxminən 20 min lirə olan qızıl parçalar toya gələn qonaqları xeyli təəccübləndirib. Talat Sam ərəb şeyxi ilə dostluq əlaqələri olduğunu və bu jestin onu xeyli duyğulandırdığını ifadə edib.





## Elektrikli maşınla rekord

İsveçli professor Eva Hakansson elektrikli maşınla rekord qırıb. Öz imkanları ilə düzəltdiyi üç təkərli maşınla saatda 390 kilometr sürətlə hərəkət edən qadın öz sahəsində rekord qırıb. Denver Universitetində mühəndislik oxuyan qadın elektrikli maşını dostları və ailə üzvləri ilə birlikdə hazırladığını deyib. Lakin maşının detallarının 80%-i özü hazırlayıb. "Killa Joule" adını verdiyi maşını 5 ilə tamamlayıb. Lakin maşını hazırlamaq üçün nə qədər pul xərclədiyini deməyib.



## 2 ay qəfəsdə yaşadı

Amerikada baş verən qeyri-adi hadisə hər kəsi şoka salıb. 2 ay əvvəl itmiş 30 yaşlı Loelle Lockvod adlı qadın taxtada düzəldilmiş kiçik bir qəfəsin içində tapılıb. Məlumatlara görə, Riky Roy və sevgilisi Kendra Tooley qadını silahla qorxudaraq qaçırdıqdan sonra evlərinin həyətindəki taxta qəfəsdə saxlamağa başlayıblar. İt zəncirləri ilə boğazından bağlanan qadın uzun müddət bu şəkildə saxlanılıb. Cütlüyün qadını oğurlamasının və iki ay qəfəsdə saxlamasının səbəbi bilinmir. Loelle adlı qadın ailəsinə təhvil verildikdən sonra ciddi psixoloji travmalar aldığı məlum olub. Gənc qadın bir müddət xəstəxanada müalicə ediləcək.

# Baş ağrıları və onların səbəbləri

Baş ağrısı son zamanların ən çox rast gəlinən xəstəliklərdən biridir. Çox zaman adi görünən bu xəstəlik özündə ağır bir xəstəliyi gizlədə bilər. Ona görə də baş ağrılarını ciddiyə almaq və bundan yaxa qurtarmağa çalışmaq lazımdır. İnsanların 60-70%-i baş ağrılarından əziyyət çəkir. Alimlərin araşdırmaları nəticəsində belə məlum olmuşdur ki, baş ağrıları insanların əhval-ruhiyyəsi, hiss və emosiyaları, problemləri, fikirləri, rejimsiz qidalanmaları və digər faktorlarla bağlıdır. Baş ağrısının müxtəlif formaları var. Bunlar simptomatik olmaqla 2 yerə ayrılır. Birinci tip baş ağrısı müstəqil bir xəstəliyin əlaməti kimi dəyərləndirilir. Buna əsas misal kimi miqreni göstərmək olar. Hər hansı bir xəstəliyin əlaməti kimi dəyərləndirilən isə simptomatik baş ağrısıdır. Yəni, baş ağrısının səbəbi soyuqdəymə də ola bilər. İlk öncə etməli olduğunuz iş baş ağrınızın səbəbini müəyyən etməkdir.





## Mədəsindən 20 paket narkotik çıxdı

Tailandın paytaxtındakı Suvarnabhumi hava limanında saxlanılan şəxsin mədəsindən 20 paket narkotik maddə çıxarılıb. 22 yaşlı Pakistanlı Məhəmməd Şoaibdən şübhələn polislər onu x-ray cihazı vasitəsi il yoxlayıblar. Mədəsində əlavə maddələr olduğu məlum olan Pakistan vətəndaşının mədəsi əməliyyat edilib. Araşdırmalardan sonra onun mədəsindəki paketlərin içərində narkotik maddə olduğu məlum olub. Ümumi çəkisi 380 qram olan narkotik maddə çıxarılan Məhəmməd Şoaibdən adlı gənc bu iş üçün 700 dolar aldığını etiraf edib. Daha əvvəl də 7 dəfə Tailanda narkotik vasitə gətirən Şoaib heç vaxt həbs edilmədiyini deyib.




QOÇ - Ümumi məziyyətlərinə görə qənaətbəxş təqvimdir. Xüsusən də saat 14-16 aralığında hansısa xoş bir hadisəylə rastlaşacaqsınız. Ailə üzvlərinizlə, həmkarlarınızla mehriban davranın.

BUĞA - Bir tərəfdən cəhdlərinizin boşa çıxması, digər tərəfdənsə ətrafınızda olanların naxələfliyi ovqatınızı poza bilər. Odur ki, müəyyən qədər təcrid olunub öz aləminizə qapılın.

ƏKİZLƏR - Ulduzlar bu təqvimi daha çox istirahətə ayırmağı tövsiyə edir. Ağır fiziki və zehni işlərə girişməyin. Saat 16-dan sonra qonaq getməyə, ikili gəzintilərə aludə olmağa dəyər.

XƏRÇƏNG - Ulduzların düzümü rahatlığı daha çox səfər və qonaqlıqlarda tapa biləcəyinizdən xəbər verir. Çünki bu gün sizə çoxlu adamlarla təmasda olmaq vacibdir. Tənhalığa qurşanmayın.

ŞİR - Bəxtinizdə ilahi bir təqvim durub. Bu səbəbdən də hansısa müqəddəs yeri ziyarət etmək, kimsəsizləri sevindirmək böyük savab qazandıra bilər. Axşam maraqlı insanlarla görüşünüz mümkündür.

QIZ - Səhhətlə bağlı nasazlığınız olsa da, bu, ovqatınızı pozmayacaq. Əksinə, gün ərzində iştirakçısı olduğunuz proseslər sizi xeyli fərəhləndirəcək. Ətrafınıza yaxşı insanlar toplaşacaq.

TƏRƏZİ - Çox düşərli gündür. Boş durmaqdansa ən xırda şansdan belə istifadə edin. Tərəfdaşlıq zəminində, perspektivli sövdələşmələrdə uğurlarınız artacaq. Özünüzü soyuqdəymədən qoruyun.

ƏQRƏB - Həddindən ziyadə uğurlu gündür. Ürəyinizə yaxın adamlarla rastlaşmağınız, həmçinin sevindirici təkliflər almağınız uzun müddət yadınızda qalacaq. Uzaq yola çıxsanız, ehtiyatlı olun.

OXATAN - Maliyyə vəziyyətiniz imkan versə, özünüzə təzə geyim alın. Çünki xeyli müddət belə fürsət ələ düşməyəcək. Göy qübbəsi kənar təsirlərə aludə olmamağı, riskdən qorxmamağı tövsiyə edir.

OĞLAQ - Yalnız maliyyə məsələlərində uğurlarınız gözlənilir. Odur ki, əsas gücünüzü bu istiqamətə yönəldin. Kiməsə borc vermək və ya almaq fikrindən uzaq olun. Axşam başqa ünvana getməyin.

SUTÖKƏN - Saat 15-ə qədər qarşılıqlı münasibətlərdə gərginlik gözlənildiyindən tədbirli olun. Bunu bacarsanız, ulduzlar sonrakı müddətdə sizə xüsusi zövq verəcək. Təzə xəbər də eşidəcəksiniz.

BALIQLAR - Sağlıq durumunuzda və fəaliyyət istiqamətində problemləriniz gözlənilsə də, qalan işləriniz uğurlu olmalıdır. Hətta günün ikinci yarısında qazanmaq ehtimalınız da var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Buz üzərində toy şəkli

Amerikalı Coş Martinez toy üçün Alyaskadakı bir buzlağı seçib. Buzlaqların olduğu yerə vertolyotla gedən cütlük qeyri-adi şəkillər çəkdiriblər. Tamamən buzlaqlarla örtülü olan bir gölün içində və kənarında çəkilmiş şəkillər hər kəsi təəccübləndirib. Qəribə yerlərdə şəkil çəkdirməyi sevdiyini deyən fotoqraf Coş Martinez bu fotosesiyanın cütlük üçün də unudulmaz olacağını düşünür.



Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565